Dr. Taha Cabir əl-Əlvani

# MÜASİR DÖVRDƏ MƏFKURƏ BÖHRANI: DİAQNOSTİKASI VƏ HƏLLİ ÜÇÜN VERİLƏN TƏKLİFLƏR

Dr. Taha Cabir əl-Əlvani

# MÜASİR DÖVRDƏ MƏFKURƏ BÖHRANI: DİAQNOSTİKASI VƏ HƏLLİ ÜÇÜN VERİLƏN TƏKLİFLƏR

BEYNƏLXALQ İSLAM FİKRİ İNSTİTUTU

"İdrak" İctimai Birliyi
Bakı - 2009

"İDRAK" İctimai Birliyi
Vidadi küç. 53

www.idrak.org.az

Redaktor:
*Elşad Mahmudov*
*ilahiyyat elmləri namizədi*

Dizayn və tərtibat:
*Cavid Məmmədov*

Müasir dövrdə məfkurə böhranı:
diaqnostikasi və həlli üçün verilən təkliflər
Bakı: CBS, 2009. - 38 s.

ISBN: 978-9952-8135-8-6

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin icazəsi ilə
nəşr olunur. DK-805d

# M Ü N D Ə R İ C A T


Təqdimat....................5

Müqəddimə....................7

İki əsas problem

Birinci problem: Məfkurə ekspansiyası problemi....................9

İkinci problem: İslam və qərb sivilizasiyaları

Birinci mərhələ: Sarsıntı və şaşqınlıq....................11

İkinci mərhələ: Qarşılaşma və qarşıdurma....................12

Üçüncü mərhələ: Dirçəliş....................12

Məfkurə ehtiyacımız....................13

Təfəkkür anlayışı....................15

Təfəkkür metodologiyası....................17

Bilik məfhumu....................19

Bəzi ideya problemləri....................20

İdeya böhranının formaları....................24

Böhranın həlli yolları....................25

Müzakirə: sual və cavablar....................33

***Bismilləhir-rahmənir-rahim!***

*(Mərhəmətli, Rəhmli Allahın adı ilə).*

***əl-həmdu lilləhi rabbil-aləmin!***

*(Həmd (şükür və tərif) olsun Allaha, Aləmlərin Rəbbinə).*

***Vas-salətu vas-sələmu alə xatəmil-Ənbiya vəl-mursəlin.***

*(Bütün Peyğəmbərlərə və onların möhrü və sonuncusu olaraq göndərilən Peyğəmbərimizə səlat və salam olsun)*

# TƏQDİMAT

Ərəb Müsəlman Gənclәri Təşkilatı qərb universitetlərində ictimai elmləri öyrənən gənclərin əksəriyyətinin eyni səciyyəvi problemlərlə üzləşdiyini yəqin etdi. Bunu nəzərə alan təşkilatın mədəniyyət işləri üzrə komitəsi, 1998-ci ildə öz mədəniyyət proqramı çərçivəsində ictimai elmləri İslam mövqeyindən öyrənən xüsusi kurslar təşkil etməyi lazım bildi. Məsələ burasındadır ki, qərb universitetlərində ictimai elmlər, qərb mədəniyyətinə və onun statistik məlumatlarına əsaslanan proqramlar üzrə tədris olunur. Bu proqramlar qərb sivilizasiyasının ideya-fəlsəfi qaynaqlarını özündə əks etdirir və bu xüsusiyyəti ilə də həmin elmləri öyrənən müsəlman tələbəsini tədrisin bütün mərhələlərində heyrətə gətirir. Bu tələbə bilir ki, İslam bilik əldə etmək üçün yalnız iki mənbəyə – vəhy və vücuda əsaslanır. O, bu biliklərə müxtəlif vasitələrlə, ən başlıcası isə əql və hissin köməyi ilə nail olur. Elə buna görə də vəhyi əhəmiyyətsiz bir şey hesab edən, onu bilik mənbəyi kimi qəbul etməyən, təbiət elmlərində istifadə olunan metodları eyni ilə ictimai elmlərə tətbiq edən qərb elmləri və qərbli bilik təlimləri onda ancaq təəccüb doğurur. Müsəlman tələbə belə qənaətə gəlir ki, bu ictimai elmlərin və humanitar axtarışların fərd, ailə, cəmiyyət və insani əlaqələr barəsində təsəvvürləri naqisdir.

Həqiqətən göstərilən sahələrə dair qərb təlimləri nöqsan və ziddiyyətlərlə doludur. Bu ictimai və humanitar elmlərin İslam aləminə gətirilməsi Qərbin özündə də müşahidə edildiyindən daha çox təlaş və həyəcan doğurmuşdur. Əgər Qərbin tərəqqisi ictimai və humanitar sahədə bu elmlərin bəzi nöqsan və qüsurlarını aradan qaldırmağa imkan yaradırsa, İslam aləminin geriliyi sayəsində həmin elmlərin nöqsan və qüsurlarının insan əqlinin formalaşmasına təsiri daha qabarıq və daha təhlükəli şəkildə meydana çıxmışdır.

Bütün bunları nəzərə alaraq, təşkilatın mədəniyyət işləri üzrə komitəsi Beynəlxalq İslam Fikri İnstitutuna «İctimai elmlərə İslami baxış» mövzusunda kurslar təşkil etməyi təklif etdi. Komitə nəzərə aldı ki, institutun ümməti ideya və mədəni böhrandan çıxartmağa yönəldilmiş proqramı vardır və o, həmin proqram əsasında bu problemin həllində İslami təfəkkür və İslami bilik sahəsində islahatlar keçirilməsində aparıcı rol oynayır. Kursların açılışı mərasimində təşkilatın mədəniyyət işləri üzrə

məsul işçisi professor Hüseyn Qəzzaz bu kursların təşkil olunmasında institutla əməkdaşlığı yüksək qiymətləndirdi.

1988-ci il iyun ayının 17-19-da institutun iqamətgahında keçirilmiş bu kurslarda institutun Katiblik Şurasının sədri doktor Əbdül Həmid Əbu Süleyman, direktoru doktor Taha Cabir əl-Əlvani, tərbiyə və təlim departamentinin müdiri doktor Mahmud Ayid ər-Rəşdan, Şimali Amerika İslam İttifaqının sədri doktor Əhməd Zəki Həməd və başqaları mühazirələr oxumuşlar.

Çıxış edənlər öz mühazirələrində kursların mövzusu ilə əlaqədar olan bir çox problemlərə toxunmuşlar. Mühazirələrdən sonra qızğın mübahisələr başlanmışdır. İştirakçılar bu cür problemlərin həllində belə kursların, seminarların təşkil edilməsinin əhəmiyyətini vurğulamışlar.

Doktor Taha Cabir əl-Əlvani «Müasir dövrdə məfkurə böhranı: diaqnostikası və həlli üçün verilən təkliflər» mövzusunda mühazirə söyləmişdir. Kurs iştirakçıları onun bu mühazirəsini və məsələ ilə bağlı digər mühazirələri çap etməyi tövsiyə etmişlər. İnşallah, Allahın köməyi ilə onların bu istəyi yaxın vaxtlarda həyata keçiriləcək. İnstitut bu mühazirəni özünün və şöbələrinin təşkil etdiyi yeni kurslarda oxunan mühazirələr silsiləsində ilk qaranquş hesab edir. arzu edir ki, bu mühazirə və onun ətrafında təşkil olunacaq gələcək mühazirələr ümmətin üzləşdiyi ideya, mədəni problemlərə diqqəti yönəldirməsinə, bu böhrandan çıxmaq üçün İslami təsəvvürlərin təqdim olunmasına, İslam ümmətinin onun üçün səciyyəvi olan sivil rolu yerinə yetirməsinə kömək edəcəkdir.

*Beynəlxalq İslam Fikri İnstitutu,*
*Hirandan, Virciniya,*
*Aprel, 1989-cu il.*

# MÜQƏDİMMƏ

18-ci əsrin ortalarından başlayaraq bütün İslam aləmi öz qapı və pəncərələrini qərb təfəkkür tərzinin, metodologiyası və mədəniyyətinin, elmi və sivilizasiyasının, incəsənət və ədəbiy-yatının, eləcə də adət və ənənələrinin üzünə müxtəlif şəkildə taybatay açmışdı. Qərb və xristian kilsələrini və onların ətrafında, yaxud nəzdində yerləşdirdiyi dini məktəblərini İslam aləminin Qahirə, Bağdad və Istanbul kimi paytaxt şəhərlərində inşa etməyə başladığı zamandan bəri bu ümmətə məxsus olan təfəkkür qalaları və İslam mədəniyyəti bir-birinin ardınca dağılmağa başladı. İslam ümmətinin yeni-yeni nəsilləri dəhşətli fikir istismarına və mədəni <u>*qərbbi*</u> məruz qaldı. Nəticədə bütün nəzəri biliklərimiz sırf qərb biliklərinə çevrildi, yaxud da onlar qərb qəlib və çərçivələrinə yerləşdirildi. Bütün bunlar İslam məfkürəsinə, qaynaqlarına, fəlsəfəsinə, onun mətləb və məqsədlərinə də sirayət etdi. Hətta Şəriət hökmləri, dinimizin əsasları kimi ənənəvi elm və bilik sahələrimiz də bu həmlə və dəyişikliklərdən xilas ola bilmədi. Elmi biliklərin əldə edilməsi və təqdim olunması, fəlsəfi sisteminin təşkili, problem və hədəflərinin müəyyənləşdirilməsi sahəsində bütün səylər Qərbdəki tərəqqi meyllərinə, qərb vasitə və metodlarına tabe etdirildi.

Beləliklə, İslam şəxsiyyəti əqli və psixoloji əsaslarının süquta uğraması ilə məhv olub getdi. Məlumdur ki, müsəlmanın əqli keyfiyyətləri istedad, irsiyyət, mədəni qabiliyyət, bilik, təsəvvür, düşüncə, təcrübə və təhlillə yanaşı müəyyən proqram və biliyə əsaslanır.

Əgər proqram və bilik varsa, ağıl da tapılar və müəyyən şəklə düşüb formalaşar, öz strukturunu başa çatdırar.

Ruhi-mənəvi dəyərlər incəsənət, ədəbiyyat və bunlarla bağlı sahələrdə təcəssümünü tapır. Odur ki, bu dəyərlərin formalaşmasında incəsənət və ədəbiyyatın rolu böyükdür.

Məhz buna görə də filosoflar dəyərləri üç növə bölərkən heç də səhv etməmişlər. Bunlar həqiqət (bilik), xeyirxahlıq (əxlaq) və gözəllik dəyərləridir. Filosofların yeganə səhvi bu dəyərlərin mənbələrini və onlara yiyələnmək vasitələrini düzgün müəyyənləşdirməməsidir. Onların həqiqət və xeyirxahlıq dəyərlərinin sadəcə olaraq ağıldan doğduğunu iddia etmələri səhvdir və biz bu fikri heç cürə qəbul edə bilmirik.

Həmçinin biz gözəlliklə bağlı dəyərlərin mənbəyinin yalnız ağıl, yaxud zövq, rəğbət və ya istək olmasını da qəbul etmirik. Biz müsəlmanlara görə bütün dəyərlərin mənbəyində bir-biri ilə bağlı olan, bir-birinə müvazi şəkildə iki nəsnə dayanır. Bunlar vəhy və vücuddur. Vəhy – Quran və sünnələrdə və onların istinad etdikləri başqa mənbələrdə faydalı olanlara inanmaq deməkdir. Vücud da həmçinin bu iki mənbə sayəsində və onların vasitəsi ilə dəyərlərin dərəcələri ilə tanış olur, onları üləmalarımız kimi zəruriyyətlər, aktual tələbatlar və təkmilləşmələr əsasında üç qrupa bölürük. Bunlar bir-birini tamamlayan, heç zaman bir-birindən ayrılmayan iki şaxədir. Əgər onlardan biri ayrı düşərsə, onda bu, həmin dəyərlərin, ya da onların bütün dərəcələrinin təhrif olunmasına, pozulmasına gətirib çıxarar.

# İKİ ƏSAS PROBLEM

## BİRİNCİ PROBLEM
## MƏFKURƏ EKSPANSİYASI PROBLEMİ

Mövzuya keçməmişdən əvvəl iki əsas problem üzərində dayanmaq istərdim. Birinci problem Məfkurə ekspansiyası problemidir. Məfkurə ekspansiyası: həqiqət yoxsa illüziyadır?

Bu suala cavab verərkən ümmətimizin ziyalıları bir-birinə zidd iki qrupa bölünürlər. Birinci qrup belə ekspansiyanın mövcudluğunu inkar edir. Bu fikri müasir sivilizasiyanı qəbul etməyən, telekommunikasiya inqilabının nəticələri ilə hesablaşmayan radikal qüvvələrin mövqeyi kimi qiymətləndirərək iddia edir ki, bütün bu amillər coğrafi, siyasi və milli hüdudları aşır. Onlar belə hesab edirlər ki, həmin radikal qüvvələr dünyanın məfkurəvi, mədəni və texnoloji sivilizasiyasına qarşı çıxırlar. Bu qrupa mənsub olanların fikrincə dünyada nə belə bir ekspansiya, nə də bu ekspansiyanı həyata keçirən qüvvə vardır. Lakin onlar soyuq və isti hava cərəyanları kimi yayılan məfkurə, mədəniyyət və incəsənətin təsir imkanlarını nəzərdən qaçırdırlar. Onlara görə ideyalar və mədəniyyətlər heç bir məhəlli və ya millətlərarası çərçivələr tanımayan çaya və ya dəryaya bənzər ki, istədiyi yerə axıb gedə bilər. Bu mülahizə haqqında danışdığımız sivilizasiyaya hakim olanların, onların davamçılarının, eləcə də bu qəbildən olan ideya və mədəniyyətlərə rəğbət bəsləyənlərin qənaətidir. Belə bir mövqe qarşısında təslim olan şəxs isə onu bütün aspektləri ilə kor-koranə qəbul edir, bunları qəzavü-qədərin labüd, qarşısıalınmaz təzahürü sayır.

İkinci qrupa mənsub olanlar isə, əksinə, belə bir ekspansiyanı nəinki həqiqət hesab edir, həm də onu daima gərginləşən həmlə kimi qiymətləndirirlər. Onların fikrincə, bu ekspansiyanın orduları, cəbhəxanası, qurbanları, döyüş meydanları, qəhrəmanları və qorxaqları var. Bu qrup ideyaların, mədəniyyətlərin və ümumiyyətlə sivilizasiyaların bir-birindən fərqlənməsini vurğulayaraq bunların məkan və zaman çərçivəsinə salınmasının mümkün olduğunu bildirir. İdeyalar və mədəniyyətlər həqiqətən orduya bənzəyir, elə buna görə də onların da öz məhəlli və ya beynəlxalq hüdud və sərhədləri daxilində qarşısına çəpər çəkilməsi zəruridir. Əgər ideyalar və mədəniyyətlər ordu kimi sərhədləri aşıb keçsə,

bu, təcavüz və açıq-aşkar ekspansiya kimi qiymətləndirilməlidir. Və bu təcavüzün qarşısı hər bir vəchlə alınmalıdır.

Bir-birini inkar edən həmin mülahizələrdə seçilməsi vacib olan düzgün mövqe isə İslamın bizə öyrətdiyi orta mövqedir. Biz dünyanı yalnız bir sivilizasiyaya malik olan müştərək Vətən kimi təsəvvür etməyin əleyhinəyik. Bu gur təsəvvür əslində yuxarıda göstərdiyimiz məfkurə ekspansiyasını rədd edən və bunu həqiqət deyil, illüziya sayan qrupun qənaətidir. Belə hesab edirik ki, bu cür mövqe müasir dünyamıza hakim kəsilmək istəyən qərb sivilizasiyasının tam və qəti qələbəsinə xidmət edir, müasir dövrdə qərb dünyasının istismarına məruz qalmış başqa millətlərə məxsus ideya, sivilizasiya və mədəniyyətlərin süni vasitələrlə sıxışdırmasına şərait yaradır. Biz bu yolu ideya və mədəni sirayətlə başlanan sivilizasiya asılılığı yolu hesab edirik. Əgər biz bu mövqeni qəbul etsək, yaxud onu bütünlükdə ümmətin rəyinə çevirsək (əsrin əvvəllərində olduğu kimi), bu mövqe bizləri və ümməti qərb sivilizasiyası və məfkurəsinin aciz və alçaldılmış köləsi səviyyəsinə endirəcək. Nəticədə biz öz mədəniyyət və sivilizasiyamızı itirəcəyik, yaxud ən yaxşı halda itirməkdə davam edəcəyik. Və ən nəhayət, Qərbin özünün də əsirliyindən nicat yolu axtardığı qərb sivilizasiyasının çıxılmaz dolanbaclarına düşəcəyik. Biz, həmçinin dünyanı özünə qapılmış və bir-birindən təcrid olunmuş mədəniyyətlər beşiyi, tənha adalar kimi təsəvvür edən qrupun rəyini də qəbul etmirik. Çünki bu cür ehtimal nəinki İslamın varlığını təsdiq etdiyi, qaynaqlarını göstərdiyi ümumbəşəri problemlərə biganə qalır, həm də ümməti sivilizasiya təcridinə düçar edir. Bu isə mədəni və məfkurə intiharı deməkdir.

Əgər belə bir təsəvvürü qəbul etdiyimizi fərz etsək, görərik ki, bu təsəvvür hər bir ölkənin qarşısını almaqda aciz olduğu telekommunikasiya inqilabına göz yummaq deməkdir. Əgər qapını bağlasan pəncərədən, pəncərəni bağlasan hava ilə, yaxud efir və ya başqa bir vasitə ilə bu inqilab içəri girəcəkdir. Biz özümüz üçün ədalətli orta mövqe seçirik, dini əqidəyə, Şəriətə uyğun olan ümumbəşəri məfkurəni qəbul edirik. Və ümmətimizi bunları öyrənməyə, bunlardan ilham almağa, bunları mənimsəməyə dəvət edirik ki, bunların vasitəsi ilə öz mənliyini möhkəmlətsin, şəxsiyyətini çiçəkləndirsin, iradəsini gücləndirsin. Bu zaman ümmət sivilizasiyamızın xüsusiyyətlərini, məfkurəmizin, incəsənətimizin və ədəbiyyatımızın qaynaqlarını unutmamalıdır.

## İKİNCİ PROBLEM

## İSLAM VƏ QƏRB SİVİLİZASİYALARI

### İslam və Qərb sivilizasiyaları arasında mədəni mübadilələrin mərhələləri

### Birinci mərhələ
### Sarsıntı və çaşqınlıq

Bu problem qərb təfəkkürü, mədəniyyəti və bilikləri ilə ilk tanışlığımızdan bəri keçdiyimiz dövrləri əhatə edir. Bu məsələ birinci problemlə üzvi surətdə bağlanaraq ona müəyyən aydınlıq gətirir. Onun əsasında biz II Səlimin vaxtında və yaxud ondan bir qədər sonrakı dövrdə qərb təfəkkürü, mədəniyyəti və biliklərinə münasibətimizi izhar edə bilərik. Bu proses üç mərhələdən keçmişdir:

Biz bu mərhələni ilk sarsıntı və şaşqınlıq mərhələsi adlandıra bilərik. Həmən heyran qalıb sarsıldılar və öz İslami məfkurələrinə və varis olduqları İslami mədəniyyətə inamlarını itirdilər. Onlara elə gəldi ki, İslam məfkurəsi və mədəniyyəti sivilizasiya yaratmaqda acizdir, irəliləyə, tərəqqi edə bilməz. Buna görə İslam dini ittiham olundu və müsəlman olan kəs psixoloji cəhətdən məğlub oldu. Beləliklə, o, müqavimət göstərmədən təfəkkür, mədəniyyət, elm, bilik, incəsənət və ədəbiyyatda qərb alternativini qəbul etməyə hazır olduğunu nümayiş etdirdi. Bu dövrdə müsəlman nümayəndə heyətləri qərb universitet və institutlarını gəzərək heç bir fərq qoymadan bilik, təfəkkür və mədəniyyət qaynaqları axtarmağa başladılar. Həmin dövrrdən etibarən ölkələrimizin elm müəssisələri fəlsəfəmizi, təfəkkürümüzü və mədəniyyətimizi qərb proqram və metodları üzrə qurmağa başladı. O dövrdə İslamın elmə, sivilizasiyaya zidd olmadığını demək müsəlmandan böyük cürət tələb edirdi. Elə buna görədir ki, bir çox müasirlərimiz Şeyx Məhəmməd Abduh və Şeyx Cəmaləddin əl-Əfqani kimilərini tənqid edir, bəzən isə onları etiraf etmək istəmirlər. Lakin həmin dövrü layiqincə qiymətləndirən tədqiqatçı çox yaxşı dərk edir ki, bu insanların əməlləri yaşadıqları dövrün şəraitinə uyğun idi. Həmin dövrdə həqiqi müsəlmanların maksimum səyləri, üləmaların cihadı qəlblərdə gizlənmiş iman qalıqlarını köməyə çağıraraq İslamın hər bir məkan və

zaman üçün yararlı olduğunu isbat etməyə yönəldilmişdi. Onlar müsəlmanları bu dağıdıcı, məhvedici ekspansiya ilə ayaqlaşmağa sövq edirdilər.

### İkinci mərhələ
### Qarşılaşma və qarşıdurma

Bu mərhələdə ürəklər müəyyən dərəcədə toxtaqlıq tapdı və təəcüblənmək dövrü arxada qaldı. Bu mərhələdə müsəlmanlar nəfəslərini dərmək, öz mövqelərini yenidən nəzərdən keçirmək imkanı əldə etdilər. Onlar müxtəlif qərb nəzəriyyələri və məktəblərinə yararlanmaq mövqeyindən yanaşdılar. Həmin dövrdə İslam və qərb mədəniyyəti arasında müxtəlif səbəblərə görə parallellik, axtarış, müqayisə aparmaq kimi meyllər yarandı. Bu səbəblərdən bəzisi müsəlmanlarla qərb təfəkkürü və mədəniyyəti arasında əlaqələrin normalaşdırılması ilə bağlı Qərbin məqsəd və məramlarının həyata keçirilməsi, müsəlmanların yaddaş və ürəklərindən qərb ideyalarına müqavimət hisslərinin silinməsi, bəziləri isə sırf İslami səciyyə daşıyaraq qərb mədəniyyətinə pəncərə açmaq, yaxud qərb təfəkkür və mədəniyyət divarında oyuqlar tapmaq məqsədi güdürdü. İslam həmin dar oyuqlardan müsəlmanların əql və ürəklərinə yenidən yol aramağa başladı. Həmin dövrdə İslam demokratiyası, İslam sosializmi, İslamda fəhlələrin və qadınların hüququ, insan hüququ kimi bir sıra mülahizə və müddəalar irəli sürməyə başladıq və bununla təəcüb mərhələsini keçərək qarşıdurma mərhələsinə daxil olduq. Bu yeni mərhələdən biz elə qənaətə gəldik ki, Qərbdə nə varsa, bizdə də var, Qərb bizlərdən nə iləsə fərqlənə bilər, lakin onun mənsub olduqları dəyərlər müxtəlif formalarda bizlərdə də var.

### Üçüncü mərhələ
### Dirçəliş

Hal-hazırda yaşadığımız, yaxud hələlik cüzi bir hissəsini başa vurduğumuz bu mərhələ İslam dirçəlişi adlandırılan mərhələdir. Biz bu mərhələni özünü dərk, özünü kəşf mərhələsi də adlandırırıq. Bu mərhələdə İslamın məfkurə, mədəniyyət, əqidə, quruluş, həyat proqramı, əxlaq, dəyərlər, standartlar kimi xüsusiyyət və aspektlərini vurğulamağa, ön plana çəkməyə başladıq. Biz həmçinin həmin mərhələdə qərb mədəniyyətinin

özündə mövcud olan bəzi dərin boşluqları aşkar etməyə başladıq. Və nəticədə yəqin etdik ki, biz aldanmışıq, siyasi və iqtisadi cəhətdən qarət olunmaqla yanaşı, mədəniyyət, təfəkkür sahəsində də qarətə məruz qalmışıq, həyatda müvazinətimizi itirmişik. Çoxumuz dərk etdik ki, qərb təfəkkür tərzi və nəzəriyyələri, proqramları və mədəniyyəti bütün məktəbləri ilə birlikdə milli oyanışımıza, sivilizasiyamızın yaradılmasına, ümmətimizin birgə abad yaşayışını təmin etməyə daha qabil və qadir deyildir. Məhz həmin dövrdə İslam dirçəlişi anlayışı meydana çıxdı, bir çox kəskin və mürəkkəb problemlər ortaya qoyuldu. Müsəlman ziyalıları çətin və təhlükəli sınaq qarşısında qaldılar: onlar ya İslamın bütün zamanlar və məkanlar üçün məqbul olması müddəalarının düzgünlüyünü, İslamın müsəlman mədəniyyətini bərpa etməyə, tərəqqi əldə etməyə, dövlət qurmağa, alternativ fikirlər irəli sürməyə qadir olduğunu isbət etməli ya da meydandan çəkilib, öz yerini başqa təlimlərə verməliydi ki, ümmət səprgərdan və çaşqın həyat tərzini yenidən yaşasın.

## MƏFKURƏ EHTİYACIMIZ

Üstün istiqamət və prioritetlərimizi qarışdırmamaq üçün haqqında danışdığımız mərhələləri nəzərə almaq çox mühümdür. Biz artıq İslamın bütün zamanlar və məkanlar üçün yararlı olması fikrini vurğulamaq mərhələsini arxada qoymuşuq. Biz həmçinin İslamla başqa mədəniyyətlər arasında oxşarlıq axtarmaq fikrindən uzağıq, çünki bu mərhələ də artıq sona çatmış və biz onu artıq keçmişik. Biz indi başqa mərhələyə – öz üstünlüyümüzü sübut etmək mərhələsinə daxil olmuşuq: bizlər ya ümmətimizi bizlərin yeganə münasib sivilizasiya alternativinə sahib olduğumuza, həqiqi və sağlam təfəkkür, mədəniyyət və sivilizasiya qurmağa daha layiq olduğumuza inandırmalı və göstərməliyik ki, biz ümmətimizi gerilik illətlərindən xilas etməyə, onun inkişaf, quruculuq və abadlıq kimi məqsəd və məramlarını yerinə yetirməyə qadirik, ya da ki, öz acizliyimizi ehtiraf etməliyik. Çünki bütün dünya artıq hər iki əvvəlki mərhələni keçmişdir. Bizlər də dərk etməliyik ki, bu iki mərhələ bizim üçün də arxada qalmışdır. Fikrimizin doğru olduğunu yeganə sübutu Qərbin təqdim etdiklərinə qarşı İslam alternativini irəli sürmək və bu alternativi həyata keçirmək, onun müvəfəqiyyət qazanmasına nail olmaqdır. Qərbin siyasi, iqtisadi, ictimai, hüquqi, tərbiyəvi, insani, fəlsəfi, mədəni və metodoloji təfəkkürü əsasında müasir qərb sivilizasiyası yaranmış və bu sahələrin bəzisində qərb dünyası böyük müvəfəqiyyət qazanmış, bəzisində

isə tam uğursuzluğa düçar olmuşdur. İslam qərb məfkurəsinə qarşı bütün sahələrdə – təfəkkür, mədəniyyət, bilik, sivilizasiya və qeyri sahələrdə uğurlu və üstün alternativlərlə çıxış etməli, bu uğur və üstünlüyü əsaslandığı və yarandığı sivilizasiyada həmin məfkurəni əks etdirən institutlar, qurumlar və vasitələrlə isbat etməlidir. Yalnız o zaman ağız dolusu deyə bilərik ki, biz yenidən qayıtmışıq və dirçəlişimiz həqiqidir, heç zaman büdrəmələrə məruz qalmayacaqdır. Ola bilsin ki, hansısa bir ölkədə İslam fiqhinə əsaslanan vətəndaşlıq aktları qanunu, İslam fiqhinə uyğun tətbiq olunan cinayət məcəlləsi vardır. Burada heç bir problem yoxdur. Həmin ölkədə başqa ticari və vətəndaşlıq qanunları da ola bilər. Burada da heç bir problem yoxdur. Osmanlı imperiyası dağılanda və xilafət ləğv olunanda (2 mart 1924 il) bütün bu qanunlar dövlət daxilində mövcud idi. Lakin bu qanunların həyata keçirilməsinə himayə yox idi. Həmin qanunlar hələ də bəzi müsəlman ölkələrində tətbiq olunur. Lakin bu qanunlar uğursuz olub heç bir sivilizasiya yaratmır. Qanun reallıq yarada bilər. Sivilizasiya yaratmaq isə başqa şeydir. Eyni ilə hər hansı bir ölkədə prezidentdən tutmuş adi polisə qədər müxtəlif vəzifələri sivil məmurlar tuta bilər. Yaxud dindar adamın prezident olması mümkündür. Lakin bu o demək deyildir ki, İslami həyat artıq burada bərqərar olmuşdur, yaxud İslam sivilizasiyası artıq yaranmağa ya da oyanmağa meyllidir. Əgər zehni üstünlük İslami məfkurə sahəsində nəzərə çarpmarsa, bütün bunlar hələ İslam həyatının bərqərar olunması demək deyildir. Nə qədər ki, ümmət özünün səciyyəvi mədəni mənliyini, İslami zəkasını və daxili dünyasını qoruyan İslami psixologiyasını yenidən bərpa etməyib, heç bir həqiqi oyanış, yaxud sivilizasiya quruculuğundan danışmağa dəyməz. İslam dünyasının insanları bu gün rasionalizm, pozitivizm, naturalizm, materializm, dialektik materializm, və s. kimi qərb təfəkkür nəzəriyyələrini bölüşürlər. Bu dünyanın ölkələrində milli siyasi, sosialist və demokratik quruluşlar və nəzəriyyələr mövcuddur. Bu ölkələrin cəmiyyətlərinə və onların proqramlarına qərb mədəniyyəti öz müxtəlif məktəbləri ilə nəzarət edir. İslam ölkələrinin əksəriyyətinin yaşadığı parçalanma, daimə mübarizə və ictimai şüur fərqlərini İslam məfkurə və mədəniyyətində alternativ fikir və rəylərlə aradan qaldırmaq mümkündür. Bu proses müsəlmanların gələcək nəsillərinin həmin məfkurə əsasında tərbiyə olunması, onların əqlinin bu mədəniyyətə, onun proqramlarına, incəsənətinə uyğun olaraq formalaşması istiqamətində getməlidir. Məhz buna görə də mövzumuzun əsas problemi kimi təfəkkür, proqram, bilik, mədəniyyət və sivil alternativ problemlərini seçmişik. Biz bilirik ki, ümmətin başqa problemləri, gündəlik qayğıları, həlli çətin olan bir çox problemləri də mövcüddür. Lakin biz iddia

edirik ki, reforma yolunun çıxış nöqtəsi və təməl daşı yuxarıda göstərdiyimiz amillərlə və problemlərin həlli ilə başlanmalıdır. Təfəkkür problemi nədir? Təfəkkür özü nə deməkdir? Onun problemləri hansılardır? Onun proqramlarında islahatlar aparmağa bizi vadar edən nədir? Bu islahatlar necə həyata keçirilməlidir?

## TƏFƏKKÜR ANLAYIŞI

### Təfəkkürün məna və həqiqəti

Burada mən müəyyən dərəcədə akademik üsluba müraciət etmək istəyirəm. Məsələ heç də hisslərə təsir edib, onları oyandırmaqda deyil, səylərimiz yuxarıda qeyd etdiklərimizi dərindən öyrətməyə yönəlməlidir. İstər ümmətimizin, istər bizlərin, istərsə də ümmətimizin aparıcı qüvvəti olan ziyalı gənclərimizin indiki vəziyyəti hissləri oyatmaq kimi prosesləri qəbul etmir. Şəriətdən bizə məlumdur ki, qaldırılan hər bir məsələnin əvvəlcə leksik, sonra terminologiya cəhətdən tərifi verilməlidir ki, insan bu barələ müəyyən təsəvvür əldə etsin. Bu gün çoxları «təfəkkür» sözünü işlədirlər. Lakin bu sözün mənasını, həqiqi mahiyyətini müəyyən etməyə ehtiyac duyulur. – Leksik mənası: dilçilər bu sözü «fəkkəra», «yufəkkəru» kimi – yəni ikinci kök hərfini təqdirlə göstərməklə tələffüz edirlər. Onlar deyirlər ki, bu sözü keçmiş və indiki zamanda birinci babda «fəkəra», «yəfkuru» – fikran kimi deməliyik. Bu söz dördüncü babda «əfkartuhu», yəni «ona xatırlatdım» kimi tələffüz edilə bilər. Bəziləri iddia edirlər ki, «fikr» sözü «fərk» sözünün dəyişilmiş variantıdır. Lakin «fərk» hissi işələrə aid olub buğda yaxud qarğıdalının çəltikdən təmizlənməsi deməkdir. «Fikr» isə mənəviyyatla bağlıdır. Dilçilər bu sözün etimologiyası, cəm və təsniyə şəkilçilərini qəbul etməsi haqqında ətraflı məlumat vermişlər. Biz məsələnin bu tərəfinə toxunmuruq. Lakin biz istəyirik ki, bu sözün leksik quruluşun tərkib hissəsi olduğunu, onun etimologiya və mənaya malik olmasını aydınlaşdıraq. Leksikologiyadan sonra birbaşa əsas mənbəyimiz olan Qurani-Kərimə müraciət edək. Allahın kitabında fikr (f, k, r) sözü nə isim, nə də məsdər şəklində işlədilmişdir. Qurani-Kərimdə bu söz felin keçmiş və indiki zamanında iyirmi münasibətlə işlədilmişdir. Məsələn: «İnnəhu fəkkəra va qaddəra», «Ləallahum yətəfəkkərunə», «Ə fələ təfəkkərunə». Məlumdur ki, ərəb dilində fel hər hansı bir hərəkətin baş verməsini bildirir. Yəni biz, məsələn, «darabə» dedikdə baş verən hadisəni, başqa sözlə desək orada «zərbə vuran» bir insan olduğunu nəzərdə tuturuq. Biz keçmiş

zamanda «o fikirləşdi», indiki zamanda «o fikirləşir», yaxud keçmiş zamanın beşinci babında «o fikirləşdi» deyiriksə, bu sözlərin hamısı fikirlə bağlı olan hadisəni bildirir. Bu hadisəni icra edən şəxsi isə «fikirləşən», «fikir edən» adlandırırıq, Allah-təala öz kitabında bu sözləri bu cür işlətməklə sanki «fikirləşən» adlandırılan zehni əməyi bizə xatırladır və bununla bildirir ki, burada hərəkəti icra edən vardır. Ona görə də fikri fikirləşəndən təcrid etmək olmaz. Harada fikir varsa, orada fikirləşən var. Göstərmək lazımdır ki, fikir adlandırdığımız şey insanın xüsusiyyətlərindən biridir. Bu əməliyyatda yalnız fərdin özü iştirak edir. İnsanın icra etdiyi zehni əməliyyatlar fikir adlandırılır. İnsanlardan fərqli olaraq heyvanlardakı bu xüsusiyyət fikir deyil, instinkt adlanır. Hətta qədim filosoflar insanın tərifini verərək onu danışan, yəni fikrləşən heyvan adlandırmışlar.

Müasirlərimiz fikir məsələsinə o qədər də əhəmiyyət verməsələr də, alimlərimiz fikrin təfsirini və tərifini onun həqiqi mənasının izahını verməyə çalışmışlar. Təfəkkürün reallığı və onun əhatə etdiklərini izahı haqqında danışarkən elmlərimizin inkişafının başladığı hicrətin üçüncü əsrindən bəri bir çox uləmaların bu elmlərə diqqətinin artdığını hicrətin dördüncü əsrində bir çoxlarının bu məsələyə öz münasibətlərini bildirdiyini, onun şərhini və izahını verdiyini və bu istilahı işlətdiklərini görürük. Qaynaqlarda təfəkkür, onun xarakteristikası və əlamətlərinin şərhi təqribən yüz səhifəlik mətni əhatə edir. Bəzi qaynaqlarda bu barədə ədəbiyyat daha zəngindir. Lakin, təbii ki, bizim qaynaqlar müxtəlifdir. Dərsliklərimizdə bu məsələyə dair xüsusi üslub və metodlarla rastlaşırıq. Bəzən bu islahın izahı və tərifinə təsəvvüf, qrammatika, fəlsəfə, kəlam elminə dair kitablarda, həmçinin təməlçilərin kitablarında rast gəlmək olur. Bütün bu kitablarda və bu elmlərin ensiklopediyalarında təfəkkür, onun sinonimləri, şərtləri və çeşidləri haqqında çoxlu fikirlər tapırıq. Mən bunlar haqqında uzun-uzadı, təfsilatı ilə danışmaq istəmirəm. Lakin mən bu qaynaqları öyrəndikdən sonra belə qənaətə gəldim ki, təfəkkür insanın düşünən, fikirləşməyə qabil olan qüvvələrinin qəlbən və ruhən, diqqət və tədbirlə məlum işlərin naməlum mənalarını, yaxud əşyalar arasında oxşarlıq axtarmaq üçün təkrar-təkrar gördüyü iş və hərəkətə verilən addır. İmam Əbu Həmid əl-Qəzali bu mənaya bir az da aydınlıq gətirərək yazır: «Bil ki, təfəkkür ürəkdə iki biliyin yaranmasına xidmət edir ki, onların vasitəsi ilə üçüncü biliyi ortaya çıxara bilsin». Sanki o, bununla demək istəyir ki, təfəkkür iki ilkin şərt hazırlayır ki, onların vasitəsi ilə nəticə əldə edilsin. Əgər «Namaz qılın!» cümləsini misal olaraq götürsək, onun təfəkkür məsləsinə çevirib əmr formasında deyiriksə, bu ilkin şərtdir. Qrammatikada «Qılın!» felin əmr formasında işlədilmişdir. Allah-təalanın öz bəndələrinə əmri vacibdir. İlkin şərtin dəlili leksikoloji

olaraq felin əmr formasını, ikinci şərtin dəlili qanuni şəridir. Verilən əmr həyata keçirilməlidir. Namaz isə vacibdir. Bu üçüncü nəticədir. Namazın vacib yaxud sünnə olmasını bilməyən insana belə deyərdim: «Peyğəmbər əleyhissəlam səhər namazını əvvəllər qılmış, sonra onu tərk etmişdir. Bu, ilkin şərtin dəlili tarixi olub, Peyğəmbər əleyhissəlamın əməllərini, nə etdiyini və nə etmədiyini göstərir. Onun bu hərəkəti fərz deyil, sünnədir. Səhər namazı da sünnədir». Bax, bu yolla üçüncü nəticəyə gəlmək olar. İnsan bəzi biliklər haqqında iki və daha artıq ilkin şərtlər hazırlamalıdır ki, onların vasitəsi ilə nəticəni, yaxud üçüncü ilkin şərti əldə edə bilsin. Bu iş təfəkkürlə mümkündür. Yuxarıda qeyd etdim ki, Qurani-Kərim təfəkkürü hərəkətlə bağlamaqla hərəkətsiz, tənbəl təfəkkürün mənasız olduğunu bizlərə bildirir. Təfəkkür naminə təfəkkür nə bu dünyada, nə də axirət dünyasında heç bir fayda vermir. Təfəkkür ya bu dünyadakı, yaxud da axirət dünyasındakı işlərimiz haqqında fikirləşməyimiz, düşünməyimiz üçün lazımdır. Ancaq təxəyyüllər, heç bir əsası və dəlilləri olmayan həqiqi şərtlərə əsaslanmayan şeylər dalınca qaçmaq mənasında işlədilən təfəkkür, düşüncə və fikirlər deyil, bir növ təxəyyüldür.

## TƏFƏKKÜR METODOLOGİYASI

Hər halda təfəkkürün mənasını və həqiqətini dərk etdikdən sonra iki problemlə rastlaşırıq. Birinci problem İslami təfəkkürümüzün metodologiyasını və əsas xüsusiyyətlərini təyin etməklə bağlıdır. Biz həm özümüzə, həm də başqalarına fikirləşmək, düşünmək üçün üsul, metod təqdim etməliyik. Bu zaman təfəkkür problemlərini, mədəniyyət və bilik problemlərini bir-birindən fərqləndirməli və onların hər birinin izahını verməliyik. Bu, məsələnin bir tərəfidir.

Məsəlinin ikinci tərəfi bundadır ki, İslami təfəkkürümüz tarix boyu bir çox çətin məsələ və problemlərlə üzləşmişdir. Bu məsələ və problemlər indi də qalmaqdadır. Biz onları həll etməliyik. Əgər razılaşsaq ki, təfəkkür insanın düşünən, fikirləmməyə qabil olan qüvvələrinin qəlbən və ruhən, diqqət və tədbirlə məlum nəsnələrin naməlum mənalarını aşkara çıxarmaq, bu haqda müəyyən qərara gəlmək, yaxud əşyalar arasında oxşarlıq axtarmaq üçün təkrar-təkrar gördüyü işə və təkidli səyə verilən addır və bu mənada bunları qəbul etsək, onda bu əməlin metodunu da müəyyənləşdirə bilərik. Qərb insanı öz düşüncə və təfəkküründə fərziyyələrdən çıxış edir. O hər bir şeydə fərziyyə ilə hərəkət edir; – birinci fərziyyə, ikinci fərziyyə, üçüncü fərziyyə, dördüncü fərziyyə və s. Sonra bu fərziyyələrin əsasında

düşünür, fikirləşir və tədbirlər görür. Bu zaman o, azaltma və əlavə etmə əməliyyatları aparır ki, müəyyən bir nəticəyə gələ bilsin. Bir müsəlman kimi mənim üçün elmdə iki mənbə vardır. Birinci vəhydir ki, onun əsasında Qurani-Kərim və sünnələr durur. Elə problemlər var ki, mən onları Qurani-Kərim və sünnələrdən çıxış etməklə fikirləşib həll etməyə, elə problemlər də vardır ki, onları vücud məsələsinə əsaslanaraq həll etməyə çalışıram. Qurani-Kərim, sünnələr, yaxud vəhy bizlərdə kainat, həyat və insan haqqında düzgün təsəvvür yaratmaq üçündür ki, doğru və düzgün əqidə formalaşdırmağa nail olaq, əməlisaleh insan yetişdirib tərbiyə edək və «qeyb» – o dünya həyatının problemlərini həll edək. Onlar bu problemlərin həlli zamanı insanın qarşısına çıxan bütün suallara cavab verməyə, başqa millətlərin həll etməkdə aciz olduqları bir çox mürəkkəb və çətin məsələlərin açıqlamağa, öz şəhfani ehtiyac və hisslərinin əsiri olan insanın düzgün qərar çıxarmaqda çətinlik çəkdiyi problemləri həll etməyə qadirdilər. Belə problemlər içərisində millətlərin həllində aciz olduqları qadın problemini göstərmək olar. Çünki bu problem həqiqətən də çətindir. Orada istək, şöhrət, məhəbbət, nifrət və ehtimallar bir-birinə qarışmışdır. Lakin bu problem həll olunmalıdır. Yaxud miras və ibadətlər problemlərini alaq. Bu problemlərin həllində də insanlar tarix boyu səhvə yol vermişlər. İnsan təkallahlılığa (tövhid) yaxınlaşmış, sonra isə bu tövhidə bir çox eyib və nöqsanlar əlavə etmişdir. Qədim insanlar belə əməllərin şahidi olmuşlar. İnsanlar dinə iman gətirib, sonra isə ondan üz çevirmişlər. Tövhidə inanmış, sonra bütpərəstliyə üz tutmuşlar. Vəhy bütün bu çətin məsələləri həll etmişdir. Vəhy, həmçinin, ibadət, kainat qanunları və əxlaqın əsas qaydaları ilə əlaqədar bir çox problemləri həll etmişdir. Deməli, mən bütün işlərimizdə fərziyyələrdən deyil, vəhydən çıxış edirəm. Hər hansı bir problemi Qurani-Kərimdə və sünnələrdə göstərilən ümumi rəy və qiyas əsasında həll edirəm. Hər hansı bir məsələnin həllində qərb insanının etdiyi kimi əqli fərziyyəyə əsaslanmıram. Əvvəlcə məsələni dərindən öyrənib, təshihlər edir, azaltma və əlavə etmə əməliyyatı aparıram ki, məsələ barəsində təsəvvür əldə edə bilim. Təsəvvürə isə mətni və onun məqsədini öyrənmək yolu ilə nail oluram. Mətni və onun məqsədini öyrənmək üçün xüsusi və kamil bir metod vardır. Bu proqramı müsəlman hüququnun əsasları adlandırırıq. Mətnlə işləmək, mətin reallıqla əlaqəsinin dərindən öyrənilməsi metodu. Mətni dərk edilməsi və onun tətbiqi proqramları – bütün bunlar biz müsəlmanlar üçün mötəbər bir elmdə – müsəlman hüququnun əsasları elmində hərtərəfli şərh edilmişdir.

Mətnlər heç də müxtəlif həyati problemlərin hamısının həllini verməmişdir. Çünki mətnlər problemlərin ümumi çərçivəsini göstərmişdir.

Mətnlər dərrakə sahibi kimi insandan hər hansı bir məsələni həll edərkən öz əqlinə, güc və bacarığına əsaslanmağa tələb edir. Burada insan təfəkkür sahiblərinə məlum olan intuisiya dərəcələrindən çıxış etməlidir. İntuisiyanın üç dərəcəsi var: Hissi intuisiya, əqli intuisiya və fikri intuisiya. Məsələn, əgər biz gözəl bir şeyə uzaqdan baxdıqda əvvəlcə həmin şeyin ağac olduğunu zənn edə bilərik. Bu, əqlimizdə oyanan birinci intuisiyadır. Həmin şeyə bir qədər yaxınlaşdıqda fikrimiz dəyişə bilər. Ehtimal edə bilərik ki, gördüyümüz dəvədir. Bir az da yaxınlaşdıqda onun at olduğunu yəqin edirik. Beləliklə, bizim gördüyümüz şey formadan mənaya çevrilir. Burada biz kainata, vücuda kainat haqqındaki qanunlara, Allah-təalanın bizlərə bəxş etdiyi güc və bacarığımıza, əqlimizə, Ulu Tanrının bizlərə verdiyi vasitələrə istinad edərək bu mövcudiyyəti yoxlayır, bu əlaqələri aşkar edir, bu mövcudiyyəti quruculuq və abadlaşdırmağa, Allah-təalanın uğrunda bizi xəlq etdiyi ali məqsədi həyata keçirməyə yönəldirik. «(*Daim öz hədəqəsində, özləri üçün müəyyən olunmuş yerdə) seyr edən Günəşi və Ayı, həmçinin gecəni və gündüzü sizin ixtiyarınıza verən Odur*» (İbrahim: 33). «*...Əmri ilə dənizdə üzmək (yüklərimizi bir yerdən başqa yerə daşımaq) üçün gəmiləri (sizin mənafeyinizə) sizə tabe və çayları sizə ram edən Allahdır!*» (İbrahim: 32). «*Allah sizə istədiyiniz şeylərin hamısından vermişdir*» (İbrahim: 34). Bütün bu məsələlərdə Şəriətin ümumi qaydalarını, göstərişlərini, məqsəd və məramlarını tətbiq edirik. Əlaqələri aşkar etmək, onları qaydaya salmaq, onlardan istifadə mexanizmlərini təşkil etmək kimi işlərdə istifadə etdiyimiz bu proqram hisslər, təcrübələr və ağıl proqramıdır. Bütün bunlardan sonra hər şeyi mütləq hakim olan Pak və münəzzəh Allahın hakimiyyətinə tapşırırıq.

## BİLİK MƏHFUMU

Qeyd etdiyimiz kimi, bilik mənbəyimiz vəhy və vücuddur. Halbuki, müasir biliyin mənbəyi yalnız vücuddur. Ona görə də bu gün tərbiyə və bilik sahəsində çalışan alimlər biliyə YUNESKO-nun və başqa mədəniyyət institutlarının verdiyi tərifi qəbul və ehtiraf edirlər. «Bilik hissə və təcrübəyə tabe etdirilmiş bütün məlum olanlardır». Amma Allahla, axirətlə, peyğəmbərlərlə bağlı olan nə varsa, bunlar elm hesab olunmur. Ona görə də bu məsələlərdən danışarkən onları xurafatla, əsatirlərlə bağlayır, onları məlum olan amillər kimi qəbul etmirlər. Əgər bir müsəlman kimi məndən «bu tərifin alternativini tələb etsələr, deyərdim ki: «Bilik vəhyin, hissin və təcrübənin sübut etdiyi bütün məlum olanlardır». Bu İslami tərifdir. Mən

hal-hazırda bütün məktəblərdə olunan «bilik hissə və təcrübəyə tabe etdirilmiş bütün məlum olanlardır», – tərifini qəbul edə bilmərəm. Bu ateist tərifidir. Biz bunu qəbul edə bilmərik. Bizim bütün tərbiyə və təlim müəssisələrimizin, məktəblərimizin və universitetlərimizin hamısının bu tərifi əldə rəhbər tutduqlarına, bilik üçün bu tərifi məqbul hesab etdiklərinə baxmayaraq, deyə bilərik ki, bu tərif bizim üçün məqbul sayılmaz. Biz vəhyin sübut etdiyi məlum olanları qəbul edirik. Çünki vəhy bizlərə elmi yollarla gəlib çatmışdır. Qurani-Kərim bütün insanlara meydan oxuyur və onlardan tələb edir ki, onda olanlara oxşar on surə, yaxud sadəcə olaraq bircə surə misal gətirsinlər. Lakin insanlar acizdirlər. Beləliklə, biz müsəlmanlar üçün bilik vəhyin, hissin və təcrübənin təsdiq etdiyi bütün məlum olanlardır. Bura hissə aid olan əqli də əlavə etmək olar.

## BƏZİ İDEYA PROBLEMLƏRİ

Təfəkkürün bizi maraqlandıran ikinci tərəfinə gəlincə, göstərməliyik ki, bunlar müsəlmanın əqli, mədəni, psixoloji, tərbiyəvi cəhətdən inkişafına olduqca mənfi təsir göstərən amillərdir. Həmin mənfi təsirlərin nəticəsində İslam ümməti müxtəlif partiya və məzhəblərə, müxtəlif dini icmalara bölünmüşdür. Bu problemlər mövcuddur və bunlar həll edilməlidir. Bundan əlavə məfkurə dolanbacından və təfəkkür böhranından çıxmaq üçün yeni yollar və metodlar işlənib hazırlanmalıdır.

### 1 – Ağıl və nəql etmə problemi

Keçmişdə və hal-hazırda ümməti parçalayan ideya problemlərinin ən ümdəsi mətn və ağıl arasında süni surətdə yaranan münaqişə problemidir. Tariximiz bu cür problemlə Rəsulullahın (sallallahu aleyhi və səlləm) zamanından xeyli sonra – yalnız tərcümələr dövründə qarşılaşmışdır. Peyğəmbər aleyhissəlamın və hətta əshabələrin (Allah onlardan razı olsun!) vaxtında belə mətn və ağıl indiki kimi bir-birilə zidiyyət və ixtilaf şəraitində deyildi və Allahın mütləq hakimiyyətinə tabe idi. Mətn ağıla yol göstərərək onu yönəldir, ağıl isə mətni dərk edir, onu mənimsəyir, onu reallığa uyğunlaşdıraraq tədbiq edirdi. Lakin bu gün mətn və ağılı öyrənən nə qədər araşdırmalar, elmi axtarışlar mövcuddur! Halbuki dediyim kimi, bu, süni problemdir və ümmətin tayfalara və qruplara bölündüyü gündən başlayan ilkin mübarizənin nəticəsi kimi meydana çıxmışdır. Bir qrup imamlıq problemində mətnə istinad edərək ağlı rədd edir, bir qrup isə ağlı mətnə qarşı qoyur. Bu problemin həllə, yeni izaha ehtiyacı vardır. Təsəvvür et ki,

yanında itdirsəyindən əziyyət çəkən insan vardır. Sən ona ağrı kəsən dərman verirsən və o sakitləşir. Lakin bu onun sağalması demək deyildir. Xəstə itdirsəyin əmələ gətirən mikrobun aradan götürülməsi ilə sağala bilər. Bunu isə yalnız cərrahiyə əməliyyatı ilə həyata keçirmək mümkündür. Biz göstəririk ki, mətn və ağıl bir-birindən ayrı mövcud ola bilməz. Şəriət ağıla istinad edir, mətn gözəldirsə ağıl da gözəldir. Özü də bu problem həmişə mövcuddur və həmişə də meydana çıxır. Bax bu ideya problemləri bir növ itdirsəyinə oxşayır. Bədəndə də kökündən qoparılası zəruri olan yaman şiş (rak) xəstəliyinə oxşayır. Onun kəsilib götürülməsi isə həmin xəstəliyin hərtərəfli öyrənilməsi ilə bağlıdır. Biz hər hansı bir məsələni şərh edərkən İslam prizmasından mətn və ağıl probleminin izahına diqqət yetirir və bu mətnlə ağılın necə iki yerə bölündüyünü göstəririksə, elə bununla da onları qarşı-qarşıya gətiririk. Yalnız bu zaman itdirsəyi yox olur və bu, aydın görünür. Problem nə qədər tez insanların müzakirəsinə verilsə, bir o qədər də tez həll olunar, ümməti iki yerə parçalamaz.

**2 – Səbəbiyyət problemi**

Səbəbiyyət – müsəlmanların qarşılaşdığı ən böyük problemlərdən biridir. Allah-təala səbəb doğuranları səbəblərlə bağlamışdır. Bununla O, bildirir ki, kainatda baş verənlər səbəblərlə bağlıdır. Yalnız Xaliq səbəbləri və səbəb doğuranları yaradır. Allah-təala bununla insanı ilkin şərtlər olmadan nəticəyə, səbəblər olmadan səbəbə gətirib çıxarır. O deyir: «*Müşriklərin vəziyyəti ağzına su gəlmək üçün iki ovcunu açan (dili və əlləri ilə quyuya işarə edərək ovcunun su ilə dolmasını gözləyən), lakin suyun ona yetişmədiyi adamın vəziyyətinə bənzəyir. Kafirlərin duası zəlalətdən başqa bir şey deyildir*» (ər-Rəd - 14). Su içmək istəyirsənsə, su olan yerə get, ovcunu doldur və iç. Amma Allahı təsbih etməyi bir kənara qoyaraq ondan ağzını su ilə doldurmasını dua etsən, əlbəttə ki, O bunu etməyəcəkdir. Allah sünnəsi budur ki, sən özün bir başa susuzluğunu yatırmalısan. Çünki su başqasına deyil, sənə lazımdır. «***Otlar da, ağaclar da (Allaha) səcdə edər***» (ər-Rəhman: 6). Bitkilər Allahın qanunlarına tabedir. İlahi sünnələrə tabeçilik Allahın öz iradəsi olmadan pozulması mümkün olmayan Ulu Tanrının qanunudur. Onu yalnız yaradan möcüzə və fəzilət naminə özü poza bilər. Bu, Allahın sünnələri olaraq müsəlmanın əqidəsidir.

Hicrətin ikinci əsrinin sonlarında və üçüncü əsrin əvvəllərində qədim yunan və digər dünya elmi-mədəni irsinin tərcüməsindən sonra fərqli şəkildə bu problemin yenidən meydana çıxdığını görürük. Deyirdilər ki, səbəbin varlığını göstərmək, Allaha şərik tutmaq deməkdir. Necə? Deyirdilər ki, səbəb təsiredici amildir və əgər Allahdan başqa təsiredici

amildən söz açırıqsa, bu Sübhanəllaha şərik tutmaq deyildirmi? Onlar bizdən soruşurlar: «Siz nə deyə bilərsiniz?» Biz deyirik ki, kainatda mövcud olan ilkin səbəb Ulu Tanrıdır. Bu cür fikrin müsəlman nəsillərinə göstərdiyi pozucu tərbiyəvi təsiri özünüz təsəvvür edin. Çox təhlükəli təsirdir. O, İslam şəxsiyyətini tamamilə məhv etmişdir. Kəlam elmi ilə məşğul olanlar səbəb problemi ətrafında kəskin müzakirələr aparmışlar. İş o yerə çatmışdır ki, İmam əl-Qəzalini aşağıdakı fikrinə görə bidətçi hesab etmişlər. O demişdir: «Od Allahın istəyi ilə yanğına səbəb olur». Ondan soruşmuşlar: «Odun yanğına səbəb olmasını necə iddia edirsən?» Cavab verib ki, bəs onda od nə deməkdir? Allah onda bu xisləti yaratmışdır. Əgər belə olmasaydı, O deməzdi:

«*Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!*» (İbrahim: 69). Allah oda sərin və zərərsiz olmasını əmr edir. İlahi iradə ilə onun təbiəti dəyişir. Elə bu səbəbə görə illət və səbəbin tərifini verənlərin sözlərini oxuduqda səni təəccüb götürür. Onlar deyirlər: «İllət Allahın iradəsindən doğan səbəbdir». Ən nəhayət, Əşarilər bu problemi aşağıdakı kimi həll edib deyirlər ki, illət səbəbin hərəkətverici qüvvəsidir və o, səbəb deyil. Necə də mənasız bir müzakirədir, üç əsrə yaxındır ki, müsəlmanlar ta razılığa gələnə qədər – öz əql və zəkalarını ona sərf etmişlər?! Ulu Tanrı qanunlar, illətlər, səbəblər, ilkin şərtlər və nəticələr yaratmışdır. Kim bunları inkar edə bilər?

Müsəlmanın ağlına göstərilən tərbiyəvi təsiri öyrənsək, görərik ki, müsəlman tez tələşə düşən, dəyişkən təbiətə malik bir şəxsiyyətdir. O, gah səbəbi mötəbər mənbə kimi əsas götürür, gah da səbəbi bir kənara atır, gah səbəblər olmadan nəticə gözləyir, gah da nəticəyə əsl səbəblərlə deyil, başqa səbəblərlə gəlir. Aciz qaldıqda isə hər şeyi Allahın iradəsi ilə bağlayır və məsələni İlahi iradəyə aid edir. Beləliklə, insan əqidə dolanbacına düşərək çıxış yolu tapa bilmir. O, ya bu mövzunu müzakirə edib, onu inkar etməklə küfr və bidət adlandırmalı, ya da susmalı, heç bir proqramı və elmi olmayan bir insana çevrilməlidir. Elə bir insan ki, səbəb olanla səbəb, nəticə ilə ilkin şərtlər arasında əlaqə tapa bilmir. Deməli, bu proqramı də mühüm problemlərdən hesab etmək olar.

**3 – Başqa problemlər**

*– Təfsir və izah problemi*

Bu problem, xüsusi ilə də Ulu tanrının xüsusiyyətlərinin, Quranın aydın olmayan ayə və mətnlərinin təfsiri də diqqəti cəlb edən, dərin tədqiqat və axtarışlara ehtiyacı olan bir problemdir.

*– Alın yazısı və iradə azadlığı*

Bu problem də ideya problemlərindən olub həlli vacib bir məsələdir. Bu problem hər zaman olmuş və olacaqdır. Çünki onun arxasında siyasi məsələ dayanar. Müaviyə İbn Əbu Sufyan xəlifə olarkən əshabələrindən (Allah onlardan razı olsun!) birinin Peyğəmbər əleyhissəlam haqqında söylədiyi bir hədisi eşidib çox bəyənmişdir. Hədisdə deyilir: «Ya Rəbb! Sənin verdiyini heç kəs ala bilməz! Qadağa etdiyini heç kəs verə bilməz! Həll etdiyinə heç kəs yox deməz!» Belə rəvayət edirlər ki, Müaviyə bu hədisi əldə rəhbər tutaraq onu bütün insanlara şamil etmişdi. O özü bu hədisi gecə və gündüz təkrar-təkrar deyər və camaatdan da bunu tələb edərdi. Bu yaxşı şeydir. Çünki Allahın adı hər gün və hər bir vaxt zikr olunmalıdır. Lakin əsas məsələ onda idi ki, Müaviyə bu işi xəlifə kimi özü ilə və dövlətlə bağladığı üçün onu Allahın iradəsi ilə bağlamış, Allahı bu işdə məsul hesab etmişdi. Nəhayət, iş o yerə çatdı ki, Peyğəmbər əleyhissəlamın beş yüzə yaxın əshabələri ilə bir vaxtda yaşamış Həsən əl-Bəsri Xəlifə Əbdülməlik bin Mərvana qiymətli bir məktub yazaraq onu bu cür fikirlərin yayılmasında məzəmmət etmişdi. O yazırdı ki, sizin adamlarıız insanları alçaldaraq təhqir edir və onlara zülm edirlər. Və bu zaman hər şeyi alın yazısı, qəzavü-qədərlə bağlayırlar. Sizin vəkil və valiləriniz şərab içir, insanlara zülm etdikləri halda, bunları Allahın iradəsi ilə bağlayırsınız. «*De: «Allah ədəbsizlik (yaramaz işlər) əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?*» (əl-Əraf: 28). Həsən əl-Bəsrinin həmin məktubu əqidə probleminə çevrilən alın yazısı və iradə azadlığı problemlərinin arxasında gizlənmiş siyasi mənanı tam çılpaqlığı ilə göstərmişdir. Bu problemi siyasi problem kimi öyrənərkən, onun barəsində yazılan nəticə çıxararkən görürük ki, bu məfkürə, ideya problemidir və o, siyasi cəhətdən müzakirə və təhlil olunur və bununla da məsələ bitir. Lakin bu problemi əqidə nöqteyi-nəzərindən müzakirə etsək, görərik, bu, daim ümməti parçalayan bir prosesdir. Çünki biz ondan danışarkən camaat iki dəstəyə – alın yazısı, yaxud qəzavü-qədərə inananlara bölünür. Beləliklə, bir dəstə digərini küfrdə, o biri dəstə də bunu bidətdə ittiham edir. lakin məsələnin siyasi və məfkurəvi cəhətdən öyrənilməsi nəticəsində necə yaranmasının səbəbləri aydınlaşdırılarkən hər şey öz yoluna qoyulur və problem öz hərtərəfli həllini tapır.

*– Təqlid və ictihad problemi*

Bu da hər zaman və məkan daxilində qaldırılan ictihad, təriqətçilik, qeyri-təriqətçilik, ictihad qapısının sındırılması və bağlanması və s. ilə əlaqədar olan kəskin problemlərdən biridir. Bu, həlli vacib olan problemdir. Çünki onun ümətin həyatına ciddi tərbiyəvi təsiri vardır.

əl-Cahiz Hicrətin üçüncü əsrində müsəlman ümmətini bu cür vəsf etmişdir: «Elə bir ümmət ki, artıq qara camaat ağılı, qul psixologiyası, heyvan təbiəti ilə yaşayır». Həqiqətən də bu vəsf bizlərə layiqdir. əl-Cahiz ümməti dünyada müsəlmanların Yer üzünün ağası, ilk dövləti olması dövründə vəsf etmişdir.

Bu problem necə yaranmışdır? O, hər şeydən öncə dədə-babalarımızı, sələflərimizi təqlid etməklə başlanmışdır. Ümmət dəfələrlə böhran anları yaşamışdır. Onun hakimləri istədiklərini etmiş, ətraflarına natəmiz əlimləri yağaraq hər şeydə onlara etibar etmişlər. Ümmət öz dinini müdafiə edərək demişdir: «Qurani-Kərim, Sünnə və dörd təriqət imamlarının dedikləri ilə uyğun gəlməyən hər şeyi rədd edirik». Bu yolla onlar hakimiyyətdə olanların vaizlərinin qarşısında qapını bağlamaq istəmişlər. Belə olduqda Quran ayələri, Peyğəmbər aleyhissəlamın hadisləri unudulur. İş o yerə çatmışdı ki, hicrətin 4-cü əsrində Hənəfilik məzhəbinin «böyük üləmalarından» olan Əbu əl-Həsən əl-Kərxi demişdi: «Hər bir ayə və hədis əshablarımızın dediklərinə müxalifdir. Bil ki, o, ya təfsirə məruz qalmış, ya da dəyişdirilmişdir». Və beləliklə, Hənəfi məzhəbi əsl, Quran və Sünnə isə fər olmuşdur. Bu çox təhlükəli bir problem, müsəlman ağlının məruz qaldığı kəskin böhranlardan biridir. Görəsən, problem ehtiyat edilən bir məsələdən ümmətin psixologiya və həyatına təsir edən adi bir hala necə çevrilmişdir?

## İDEYA BÖHRANININ FORMALARI

Mən hər ansı bir insanın üməti sürəyə çevirib onun üzərində hökmranlıq etməsinə imkan yaradan amillərin özünü də yuxarıda haqqında danışdığımız problemlər cərgəsinə daxil edirəm. Əldə etdiyimiz tərbiyə və mədəniyyət bizləri bu şəkildə, məğmun olaraq yaşamağa hazırlamışdır. Fiqh elminin böyük nümayəndələrindən biri imam əl-Mərudi (Allahın mərhəməti üstündə olsun, Allah bizim və onun günahlarını bağışlasın!) deyir: «Zülm etmək güc imamlığına icazə verilir və onun qanunları kəsərli olmalıdır. Zorakılıq imamlığı, yəni zalımın imamlığı mümkündür. İmamın seçilməsi üçün nigahda olduğu kimi iki nəfərin şahidiyi kifayətdir». Bu sözləri hicrətin 450-ci ilində vəfat etmiş görkəmli fiqh üləmalarından biri demişdir. İdeya və fiqh irsimizin məruz qaldığı zəiflik və cılızlığın səbəbini burada axtarmaq lazımdır. Ümmətin bu gün üzləşdiyi problemlərin bu kimi fikirlərlə bağlılığı var. Ümmətin sürüyə çevrilməsinin arxasında bu fikirlər durur. Məhz bu səbəblərə görə Bağdad 656 (hicri) ildə süqut etmiş,

minarələr insan kəllərindən qurulmuş və müsəlmanların qanı sü yerinə axmışdır.

Allahın Kitabına, Peyğəmbərin sünnələrinə heç nədə istinad etməyən, bu kimi proseslər nəticəsində meydana gələn bu ideya ixtilafı hökmən həll olunmalıdır. Bu həllin yolu cərrahiyə əməliyyatından keçməlidir. Məsələn, əgər universitet tələbəsi diplom işi kimi ictihad mövzusunu götürürsə, o işə girişir, yəqin ki, ona elmi rəhbər də təyin olunur. Lakin bu yazıq tələbədən təhlil deyil, məsələnin ümumi şəkildə təsvir olunması tələb olunur. Məlumdur ki, hər hansı ərəbin və yaxud İslam universitetində magistr və doktorluq işlərinin müzakirəsi zamanı tələbənin «Mən belə güman edirəm ki» sözlər deməsinə ixtiyar verilmir. Dərhal ondan soruşa bilərlər: «Sən kimsən ki, güman da edəsən?» «Sənin güman edirəm deməyə necə cürətin çatır?» «Bu güman səndə haradandır?» Belə yəqin etmək olar ki, tələbədən ağlını və rəyini itirməsi tələb olunur. Əgər tələbə hər hansı bir fikri deyib onu qədim mənbə ilə əsaslandırmırsa, bu, böyük cinayət hesab olunur və onun dissertasiyası müzakirələrdən keçmir. Əsl elmi axtarışlar təhlilə və obyektiv tənqidə əsaslanmalı, qoyulmuş problemin mənfi cəhətləri və onun nəticələri, bu problemi yaradan səbəblərin hərtərəfli izahı verilməlidir ki, müsəlman ağlının gedişatını düzgün istiqamətləndirsin.

## BÖHRANIN HƏLLİ YOLLARI

Deməli, yaşadığımız təfəkkür böhranı mənbə, qaynaqlar və proqramlar sahəsində mövcud olan həqiqi böhrandır. Bu böhran əql və zehnimizdə, psixologiyamızda, fikir tərzimizdə olduqca pis izlər buraxmış əsas tarixi problemlərdir ki, islahat aparmağa yönəldilmiş bir çox cəhdləri puça çıxartmışdır. Bu ümmətin tarixində islahat aparmağa yönəldilmiş bir çox və uğurlu cəhdlər olmuşdur. lakin həmin problemlər bir çox hallarda yolu yarısında yaranır. Çünki bu «itdirsəyidir», sonra partlayır. O, gah hər hansı bir reformanı parçalayır, gah da bu hərəkatı puç edir, ya da nəticəyə çatmamışdan onu iflic edir. Deməli, bizim məhz təfəkkür sayəsində doğru və düzgün təfəkkür proqramlarının hazırlanmasına ehtiyacımız var. Bu proqramlar ərəb təfəkkür tərzindən və onun nüfuzundan uzaq olmalıdır. Hesab edirik ki, bu sahədə bizim xüsusi mentalitetimiz var. Lakin, bununla bərabər bizlərin və bəşəriyyətin qalan hissəsinin ümumi, müştərək problemləri var. Ona görə də müştərək və xüsusi problemləri müəyyən etmək lazımdır. Məsələn, təbiət elmləri və onların təzahürləri, materiya və onun xüsusiyyətləri ilə bağlı olan bütün elmələr və ideya problemləri

bizlərlə başqaları arasında müştərək ideyalar qəbilindəndir. Onların metodları elmi neytrallıqla səciyyələnir. Çünki onlar maddi həyatla bağlı konkret təcrübəyə əsaslanır. Sənin də, qərblinin də iki gözü vardır. Sənin də, qərblinin də iki eşidən qulağı, düşünən beyni vardır. Həyat birdir, onun qayə və imkanları eynidir. Ona görə də, hissi və təcrübi dəlil kimi maddi həqiqətlər bu və ya başqa insana müxtəlif eksperimentlərlə çata bilər. Bu həqiqətlər millətlərin, dinlərin, sivilizasiyaların və nəzəriyyələrin dəyişilməsi ilə dəyişilir. Bu sahədə bəşəriyyətin əldə etdiyi bütün nailiyyətlərdən istifadə etmək mümkündür. Bütün insanlar üçün kainat elmlərinin və onların maddi mövzularının və təzahürlərinin ümumiliyi də fikirlərin, dinlərin və sivilizasiyaların müxtəlifliyi ilə dəyişilir. Dinlərin müxtəlifliyi ilə riyaziyyət, kimya, tibb, geologiya və bir çox elmlərin metodları və qanunları heç zaman dəyişilməmiş və heç zaman dəyişilməyəcəkdir. Qoyulmuş məqsədlərə çatmaq üçün insan fəaliyyətini istiqamətləndirən müxtəlif vasitələr, sistemlər və biliklər təcrübəsindən bəhrələnən amillərin əksəriyyəti materiya və onun təzahürlərinin öyrənilməsi ilə bağlı olan təbiət elmlərinin həqiqətlərindən ibarət sistemə əsaslanır. Bir müsəlman kimi məqsəd və məramlarımızın başqalarının məqsəd və məramlarından fərqlənməsinə baxmayaraq, vasitələri, sistemləri müxtəlif institutlardakı təcrübələri bir çox hallarda ilqibas edib, istifadə etmək olar. Məsələn, dövlətin nəzarətini həyata keçirən, Qərbdə parlamentlər kimi mövcud olan institutlar çox gözəl təşkilat olub, nəzarəti həyata keçirir. Lakin bu zaman mən demokratiyanın deyil, şəriətin tətbiqi və şəriətin tətbiqinə nəzarət olunmasını istərdim. İstərdim ki, dövlət başçısı şəriətin tədbiqinə nəzarət etsin. Allah-təala bizlərə hər hansı bir məsələdə daha doğru, daha düzgün rəyə gəlmək üçün birlikdə məsləhətləşmələr aparmağı əmr edir. Qərb demokratiyası isə azlıqlarla əksəriyyət, konqreslə deputatlar, hakim və müxalifat arasında müəyyən bir qərara dəstək vermək uğrunda aparılan mübarizədir. Həmin qərarın lehinə verilən səslər çoxaldıqca, bu qərar qəbul edilir. Yəni burada məsələ bir qrup şəxsin xeyrinə həmin qərarın qəbul olunması üçün aparılan mübarizədən ibarətdir. Mənə görə əsl həqiqətə çatmaq, dialoq aparmaq və əməkdaşlıq etmək üçün Şura ən yaxşı yoldur. Çünki Şurada fikir mübadiləsi edir, müxalifət və iqtidar bu və ya digər partiya daha yaxşı, daha münasib qərar çıxarmaq üçün dialoqa girirlər. Lakin bu bir çox müsəlman ölkələrində hakimlərə verilən səlahiyyətlərlə tərs mütənasibdir. Biz onlardan öz fəaliyyətləri üçün hesabat vermələrini hansı yolla tələb edə bilərik? Hakimiyyətin əsaslandığı fəlsəfə və ondan istifadə etmək metodunda mənə görə Qurani bir göstəriş vardır. Lakin hakimiyyət özü və birbaşa seçki və başqa yolla hakimiyyətə gəlmək

insani təcrübələrdir ki, onları öyrənmək, təhlil etmək və onlardan bəhrələnmək mümkündür. Bu zaman onları tam halda götürüb tətbiq etməməliyik. Deməli, təbiət elmləri, dialektika, texnologiya və tətbiqi elmlər sahəsində sadəcə göstərişlərlə kifayətlənmək olur. Bu gün yeganə tələb olunan şey bu elmlər, onların məqsəd və məramlarına İslami sima verməkdir. Əgər biz hər hansı bir elmi tərəqqiyə nail oluruqsa, bunu Yer üzərində hakimlik etmək, fəsad əməllər törətmək üçün etmirik. Müasir sivilizasiya Yer üzərində ağalıq, amirlik etmək və fəsadlar törətmək üçün tərəqqiyə nail olmuşdur. İri dövlətlər aya uçur, orada təcrübələr keçirir. Kimyəvi və baktereoloji silahlar istehsal edir. Bunların hamısı Yer üzündə amirlik etmək, fəsadlar törətmək üçündür. Bizlər isə bu elmlərlə maraqlanmalı, ümumi qayda-qanunlar çərçivəsindən kənara çıxmamalıyıq. Biz Yer üzündə amirlik etmək istəmirik. Lakin heç kimə də icazə verməməliyik ki, amirlik etsin.

Birisi tiryək becərir. Ona deyirəm ki, bu işə qadağa qoyulub. Dərhal soruşur ki, nə üçün? Axı, ziraətlə məşğul olmağa Allah özü icazə verir?! Cavab verirəm ki, bəli, lakin bu ziraət fəsadlar törədəcək. Gəl sən faydalı işlərlə məşğul ol! Deməli, bu elmlər və bu məşğuliyyətlərdən mənfəətli olanı iqtibas etməli və onları İslam çərçivəsinə uyğunlaşdırmalıyıq.

Lakin, bundan başqa narahatlıq doğuran digər problemlər də vardır ki, bu Qərbin humanitar və ictimai elmlər adlandırdığı problemlərdir. Əsas məsələ məhz buradadır. Bu elmlərin mövzusu və məqsədi insandır. Burada məktəblər, dinlər və sivilizasiyalar bir-birindən fərqlənir. Hər bir nəzəriyyənin, sivilizasiyanın, mədəniyyətin və dinin kainat, həyat və insan haqqında, habelə insanın varlığının məqsədi və bu varlığın təbiəti haqqında öz mövqe və fikirləri var. Bu elmlər, həmçinin əxlaqi münasibətləri və əldə olunacaq elmləri, mədəniyyətləri və incəsənətləri öyrənir. Hər hansı bir məsələni öyrənərkən nəyin xeyirli, nəyin zərərli, nəyin çətin, nəyin asan olması sahəsində bizləri başqa sivilizasiyalarla eyni, müştərək proqramlar bağlaya bilər. Lakin insanı, həyatı, məqsəd və məramları təsəvvür etmək sahəsində dinlər bir-birindən köklü surətdə fərqlənir.

Müsəlman alimi həndəsə və tibb elmini öyrənərkən heç bir problemlə qarşılaşmır. Lakin o, insanı Allah məqamına qaldıran qərb fəlsəfəsini öyrənərkən görür ki, bu fəlsəfə deyir: Allah mənfəətə himayədarlıq etməli, günahları əfv etməli, insanlara hər bir neməti bağışlamalıdır. Lakin bu fəlsəfə demir ki, nə halaldır, nə haram. Onlara görə Allah zina etməyi, iqtisadiyyatda sələmi halal buyurmalıdır. Onlar deyirlər: Allah insanı cəhənnəmə göndərə bilməz, bu insanı və onun azadlığını təhdid edir. Onlar bütün bu problemləri kilsəyə gedib Allahla öz aralarında həll etməyi

məqsədə uyğun edirlər. Gözəlliyin dəyərlərini lüt kişi və qadında, meydan və küçələri bəzəyən lüt heykəllərdə görən qərb incəsənəti haqqında eşidib oxuyarkən böyük nifrət və iyrənmə hissləri duyuram. Mən ayıb yerləri örtən qədim sivilizasiyanın oğlu olan müsəlmanam. Fironlar dinsiz olmalarına baxmayaraq müxtəlif şəriətlərdə bədənlərini örtərdilər. Babilistanda da həmçinin. Mənə görə lüt-üryanlıq insanı təhqir edir, onu alçaldır. Qərb insanı isə, əksinə, bütün insanı ucaltdığını iddia edir. Ona görə də mən üryanlığı təbliğ edən incəsənətə və əxlaqa nifrət edirəm. Tətbiqi və texnoloji elmlər sahəsindəki ülfəti burada tapa bilmirəm. Bu səbəbdən də fəlsəfə, sosial elmlər, incəsənət, əxlaq və humanitar elmlərin bölgələrə, ərazilərə müvafiq olmasını düzgün hesab edirəm.

İndi isə humanitar və ictimai elmlərdə bilik probleminə keçək. Bu elmlərin mövzusu insan, cəmiyyət və dövlət, həmçinin insanın mədəniyyəti, psixologiyasıdır. Bunların hər biri ayrı-ayrı aspektlərə xidmət edir. Hər şeydən öncə Qurani-Kərimin və Sünnələrin yalnız halal və haram kimi şəri hökmlərin mənbəyi olduğuna dair xurafata son qoymalıyıq. Bu elə xurafat və elə bir problemdir ki, müsəlmanın əql və zəkasını çox erkən vaxtlarda zay etmiş, onu Qurani-Kərimin altı min ayəsinə məhəl qoymadan yalnız halal və haram məsələlərinə aid olanlarla maraqlanmağa sövq etmişdir. Biz istəyirik ki, Qurani-Kərim şəri hökmün mənbəyi ilə yanaşı, həm də mədəniyyət və bilik mənbəyinə çevrilsin. Fiqh üləmaları deyirlər ki, hökmlərə aid ayələrin sayı üç yüzdür, başqaları isə bunların üç yüz deyil, beş üz olduğunu iddia edirlər. Onlar deyirlər ki, ümumiyyətlə belə ayələrin sayı 500-1200 arasındadır. Bütün bu deyilənlərlə razılaşıram. Lakin bizi başqa problemlər – humanitar və ictimai elmlər problemləri maraqlandırır. Qurani-Kərim bu problemlərə toxunmuş və onları göstərmişdir. Biz Qurani-Kərimin bu sahədəki hidayətlərini kəşf etməliyik. Psixologiya elmi insanı və onun psixologiyasını, ictimai elmlər cəmiyyəti, onun üzləşdiyi problemləri öyrənir. Bütün bu məsələlərə Qurani-Kərim və Peyğəmbər sünnələri toxunmuşdur. Belə olan hallarda nə üçün biz onları mədəniyyət, ideya, bilik, sivilizasiya mənbəyi deyil, yalnız şəri hökmlər mənbəyi hesab etməliyik?! Bu elə bir məsələdir ki, müsəlman gündəlik həyatında dəfələrlə bu və ya digər ayə, bu və ya digər hədislə qarşılaşır. Bunun üçün biz:

1. Qurani-Kərimi və Peyğəmbər sünnələrindən doğru və səhih olanları yenidən oxumalı, onlarda humanitar və ictimai elmlərin problemləri haqqında deyilənlərin təsnifatını verməliyik. Çünki onların bir çoxu tarix boyu fiqh elmi ilə qarışdırılmışdır. Bəzilərinə isə imamlarımız əhəmiyyət verməmişdir. Fiqh alimləri və təməlçilərin şəri hökmə çatmaq üçün ictihad proqramları hazırladıqları kimi biz də Qurani-Kərimdə və sünnələrdə

humanitar və ictimai elmlərə aid olanları öyrənmək üçün proqram hazırlamalıyıq ki, onun vasitəsi ilə Qurandan və Sünnələrdən bu sahələrdə istifadə etməyi öyrənək.

2. Biz humanitar və ictimai elmlərə və onun sahələrinə aid irsimizi dərindən öyrənməliyik. Bizdə tərbiyə, imformasiya və psixologiya kimi elmlərin mütəxəssisləri vardır. Bir müddətdir ki, mənim yanımda assistent vəzifəsində bir gənc çalışır. Mən ona Fəxrəddin ər-Razinin bir kitabını verdim. Bu gənc Amerikada təhsil almış, psixologiya sahəsində ixtisaslaşmışdır. Həmin gəncin ağlına belə gəlməmişdir ki, müsəlmanlar psixologiya adlanan elmlə tanış imişlər. O, mənə dedi: «Çox təəcüblüdür! Universitetdə əldə etdiyim biliklər qüsurlu, işlədilən istilahlar səhvdir. Doğurdanmı bu kitab hicri tarixi ilə 606-cı ildə yazılmışdır?» Ona dedim ki, bəli, həmin alim hicrətin 606-ci ilində vəfat edib və bu kitabda Freyd və müxtəlif psixologiya məktəbləri nümayəndələrinin indi nail olduqlarına bir çox əsr bundan qabaq toxunulmuşdur.

Haqqında danışdığım bu müsəlman gənc Qurani-Kərimin və Peyğəmbər sünnələrinin onun üçün bir qaynaq və mənbə ola bilməsinə inanmır. Ona görə də o, psixologiya sahəsi uzrə professor, həkim-psixoloqa çevrilir. Lakin bu zaman o hər bir hərəkət və proqramında qərb dünyabaxışı və fəlsəfəsi mövqeyindən çıxış edir. Məhz buna görə də mütəxəssislərimiz üçün lazım olan bütün imkanları yaratmalıyıq ki, bu problemə və onun həllinə dair müsəlman irsində olanları tənqidi nöqteyi-nəzərdən keçirib, onların təsnifatını versinlər.

3. Ümumbəşər irsi olan və qərb irsi kimi tanınan müasir irsin öyrənilməsi vacibdir. Bütün bəşəriyyət bu irsin yaradılmasında iştirak etmişdir. Onlar bir çox hallarda sələflərimizin kitablarına müraciət edib onlardan istifadə etmişlər. Orada deyilənlərə əsaslanaraq, onları öz mövqe və baxışlarından təqdim etmişlər. Bəli, bunların hamısını öyrənməliyik. Lakin indi istifadə etdiyimiz üslub və metodla deyil, diqqətlə, tənqidi, nöqteyi-nəzərdən, Qurana və Peyğəmbər sünnələrinə əsaslanaraq, irsimizdə bu problemlə bağlı olanları əldə rəhbər tutaraq öyrənməliyik. Hər şeyi xəlbirdən keçirdib, yaxşını pisdən, xeyirli olanı ziyanlı olandan fərqləndirməliyik. Bu isə xüsusi proqramın hazırlanmasını tələb edir. Qərb təfəkkür tərzlərinə münasibətimizi birinci şəkildə göstərilənlərin əsasında qurmalıyıq.

Nəhayət, bu problemin həlli vasitələrinə gəlincə, onlar aşağıdakılardır:
– Seminarlar. Bu kimi seminarlar hazırki seminar tipli olmalıdır ki, bu problemlər, haqqında fikir mübadiləsi apararaq, ümumi müştərək rəy və mövqe yarada bilək. Saminarlar müəyyən bir elm sahəsinə, yaxud tərbiyə,

psixologiya kimi əxlaqi elmlərin problemlərinin öyrənilməsinə həsr olunmalıdır. Bu kimi seminarlarda alim və profesorlarımızın təqdim etdikləri elmi axtarışlar bu problemlərin bir çox qaranlıq aspektlərinə işıq salmağa imkan verəcək.

– Bu sahədə iş qabiliyyəti və bacarıqlarına inam bəslədiyimiz alim və tədqiqatçıların seçilməsi;

– Aspirantura tələbələrini bu problemlə bağlı mövzuların seçilməsinə ruhlandırmaq. Onların bu sahədəki işlərini sonradan öz sahələrinə uyğun seçilməsi və istifadə olunması;

– Müxtəlif informasiya vasitələrində bu problemlə bağlı tədqiqat və elmi axtarışların dərc olunması;

– Bəzi ciddi, əhəmiyyəti olan tədqiqat və elmi axtarışlara dərhal reaksiya verilməsi;

– Hər hansı bir problemə aid tədqiqat əsərinin hazırlanmasına və yazılmasına bir çox mütəxəssis-professorlardan cəlb edilməsi;

– Bu problemlərin daha yaxşı öyrənilməsi üçün müəyyən ideya təbliğatının aparılması.

Problemə bu ötəri, eyni zamanda hərtərəfli baxış üzləşdiyimiz problemin nə qədər böyük və təhlükəli olduğunu nümayiş etdirir. Belə hesab edirik ki, əgər İslam aləminin bütün universitetləri bu problemlərin həllinə layiqincə diqqət yetirsə, 15-20 ildən sonra hansı isə bir nəticəni gözləmək olar. Lakin bizim institutumuza bənzər institutların isə nəsillərə ehtiyacı vardır. Mənə görə bizim əsas vəzifəmiz düzgün planlaşdırma və elmi təsəvvürlərə nail olmaqdır ki, bütün müsəlmanları bunlarla tanış edək və bu problemlərin həllində yaxından iştirak etməyə qadir olan bir çox insanları cəlb edə bilək. Burada diqqəti cəlb edən bir məsələni xatırlatmaq yerinə düşərdi. Bizim ingilis dilində hazırladığımız «İslami bilik-Biliyin İslamlaşdırılması» kitabı çapdan çıxdıqdan sonra [İSLAMIZATION of KNOWLEDGE] İslam aləmində və Qərbdə İslam və təbiət elmləri ilə məşğul olan 7000 alimin siyahısını əldə etdik. Onların beş mininə kitabdan bir nüsxə göndərib xahiş etdik ki, kitab haqqında, orada qaldırılan problemlər haqqında öz rəy və təkliflərini bizə bildirsinlər. Xatırlatmaq istərdim ki, kitabların göndərilməsi ilə bağlı poçt xərcləri on beş min dolları keçmişdi. Nəticə nə oldu? Beş min nəfərin yalnız 138-dən cavab aldıq. Onlardan yalnız 56 nəfəri tədqiqat işi yazmış, yerdə qalanları isə şükranlıq məktubu göndərmişdilər. Həmin 56 tədqiqatdan yalnız üçü göstərdiyimiz tələbatlara cavab vermişdir. Üç tədqiqat işini isə institutumuzun əməkdaşları hazırlamışdır. Deməli, cəmi altı tədqiqat işi. Buradan aydın olur ki, iki min

alimdən yalnız biri bu problemlə yaxından məşğul ola bilər. Bu keçmişdə olmuşdur.

İndi isə, şükür Allaha, hər şey dəyişmişdir. Problemlə məşğul olmaq istəyənlərin sayı artmışdır. Lakin onların imkan və qabiliyyətləri istənilən səviyyədə deyildir. Bu isə o deməkdir ki, müsəlmanın ağıl və zəkasını dəyişdirməyə ehtiyac duyulur. Quranı anlamaq üçün onu təfsir etmək lazım olmuşdur. Uzun müddət təqlidə əsaslanan bu ağıl və zəka sadə camaatın məfkurəsi olmuşdur. Ona görə də bu ağıl və zəkanın yenidən oyanması, təkmilləşməsi tələb olunur. Məhz bu səbəbə görə biz bu problemi qaldırdıq. Çünki bu problem təkcə müəyyən bir qrupun üzləşdiyi və müəyyən bir ideya ilə bağlı olan problem deyil, əksinə, bu problem bütün ümmətə aid olan məfkurə və mədəniyyət problemidir. Ümməti bunun əsasında tərbiyə etmək, bu sahəyə öz töhfələrini vermək üçün bütün xeyirxah, imkanı və bacarığı olan qüvvələri bu işə cəlb etmək lazımdır.

Son statistikaya görə indi Amerikada müxtəlif problemlərlə məşğul olan 78000 müsəlman tələbəsi var. Təəsüf ki, öyrənilən bu problemlərin əksəriyyəti qərb aləminin özünün üzləşdiyi problemdir. Hər hansı bir tələbədən hansı elmi problemlə məşğul olduğunu soruşsan, dərhal cavab verər ki, ya Indiana ştatının, ya Çikaqo şəhərinin, ya da Vaşinqton şəhərinin təbiətini və xüsusiyyətlərini öyrənməklə məşğuldur. Tibbi öyrənən tələbədən soruşsan, deyər ki, o bu sivilizasiyanın filan xəstəliyi ilə məşğul olur. Humanitar və ictimai elmləri öyrənən tələbə deyəcək ki, Bəni Famid, yaxud Zəhran qəbiləsini öyrənir. Dilçi isə deyəcək ki, o, Afrika, yaxud Asiyada yayılmış ləhcələrindən birini öyrənir. Bütün bu elmlərin müqabilində müsəlman ərəb tələbəsi və yaxud onun ölkəsi təhsil üçün 70 mindən yüz min, bəlkə də iki yüz minədək dollar ödəyir. Bu elmlərin nəticəsində tələbənin şəxsiyyəti korlanır, onun İslam əqidəsi üzrə inkişafı zəifləyir. Bunun müqabilində isə həmin sivilizasiyaya, bəzən də onun siyasətinə, institutlarına, şirkətlərinə və elmlərinə xidmət edən tədqiqatlar verir. Nəticədə isə o, bakalavr, magistr, ya da doktor dərəcəsi alır, yaxud da öz aylıq maaşını almaq intizarında olan çinovniklərin sırasına qoşulur.

Bu, çox mühüm bir məsələdir. İslam Tələbə Təşkilatı və Cəmiyyətləri müsəlman gənclərinin bu bəlalardan xilas edilməsi prosesində yaxından iştirak etməli, onlara cəmiyyətdə müsbət və fəal rol oynamaları üçün imkan və şəriət yaratmalıdır. Əgər bu tələbələr humanitar və ictimai elmləri öyrənirlərsə, arzu edərdik ki, onlar ideya və bilik problemlərindən biri ilə məşğul olsunlar. Onların təsiri ya İslam məfkurəsinin və metodologiyasının problemlərindən birinin həllinə və hazırlanmasına, ya da ki İslami bilik və mədəni mübadilə prosesinə xidmət edən problemlərdən birinin

öyrənilməsinə yönəlməlidir. Əgər institut və Tələbə təşkilatları müsəlman gənclərini bu rolu yerinə yetirməyə səfərbər edə bilsə, bu gənclərin təsirinə ümmətimizin sərf etdiyi pulları havayı sovurmaz, öz ehtiyaclarımıza sərf edilər. Bu yolla biz həmin universitetlərdən öz problemlərimizin həll olunmasında istifadə edə bilərik. Biz istərdik ki, müsəlman tədris müəssisələri və onların şöbələri qərb sivilizasiyasının problemlərinin həllinə deyil, öz problemlərimizin həllinə xidmət etsinlər. Əgər İslam ölkələrində hökm sürən hər hansı bir problemin həllinə dair bir tədqiqat işi yazsan, bununla mədəni bəhrələnmə prosesinə və gerilik maneələrindən birinin aradan qaldırılmasına öz töhfəni vermiş olursan. Əgər sən hansı bir proqram, ideya və humanitar elmlərin problemlərini İslam mövqeyindən həll edirsənsə, bununla öz ümmətinin mənafeinə xidmət etmiş olursan.

Bu ötəri çıxışımda mən yalnız bəzi problemlərə toxundum. Ümidvaram ki, bu çıxış və onun ətrafında gedəcək müzakirələr, sual və cavablar başqa problemlərin də həllinə kömək edəcəkdir. Diqqətinizə görə təşəkkür edir, Allahdan hamı üçün bağışlanma diləyir, hamı üçün müvəffəqiyyət arzu edirəm.

## MÜZAKİRƏ

**Sual:** – Mühazirənizdə Şeyx Muhəmməd Abduhun adını çəkdiniz, məlumdur ki, onun haqqında müxtəlif rəy və fikirlər var. Bu barədə nə deyə bilərsiniz?

**Cavab:** – Bu suala ideya ekspansiyası problemi ilə əlaqəli şəkildə cavab verə bilərəm. Bəli, ideya ekspansiyası və onun qarşısında məğlub olmağımız fikri bir sıra müsəlman ziyalıları tərəfindən qəbul edilmiş və bu problem qaldırılmışdır. Bu prizmadan, bu bucaqdan əl-Əfqaninin və Muhəmməd Abduhun əsərlərini öyrənsən, belə nəticəyə gələ bilərsən. Muhəmməd Abduh o zamanlar Misirdə qadın, onun hüquq və vəzifələri haqqında yazarkən, Qasim Əmin «Qadın azadlığı» kitabını dərc etdirərkən, sonralar Hüda Şəaravi qərb meylli qadın hərəkatına rəhbərlik etməyə başlayarkən, bəziləri bütün bu problemləri bir-biri ilə bağlayırdı. Sonra müəyyən adamlar iddia etdilər ki, «Qadın azadlığı» kitabının Muhəmməd Abduh Qasım Əminə diktə edərək yazdırmışdır. Muhəmməd Abduh elə cürət sahibi idi ki, istəsəydi özü öz əli ilə belə bir kitab yazardı. Nə üçün özü yazdığı halda müəlliflik hüququnu Qasim Əminə verməliydi? Lakin, əgər problemi adət etdiyimiz metodla tarixlik baxımından öyrənsək, görərik ki, həmin dövrdə gözəl niyyətli lakin imkanları məhdud olan həqiqi müsəlman alimləri olmuşdur. Bu alimlərin, az da olsa, özlərindən sonra qoyduqları əsərləri öz tarixi çərçivəsində öyrənərkən onların günahından keçməli, onları çox da ittiham etməməliyik. Məşhur və yeri bəlli olan İmam əl-Buxaridən Qurani-Kərimin yaranması haqqında soruşarkən anlamı çətin olan cavab vermişdir. Hakimlər onun bu cavabını Quranın yaradılması fikri ilə razı olduğu kimi qəbul etmişlər. Onun tərəfdarları isə imamı ciddi-cəhdlə müdafiə edib bildirmişlər ki, o, belə bir bidət sözü deməmişdir və belə deyənlərin fikri ilə heç zaman razılaşmamışdır. Lakin əl-Buxarinin bədxahları israrla bu sözün ona məxsus olmasını iddia edirlər. Halbuki, məsələni diqqətlə öyrəndikdə insanın məcburiyyət qarşısında və təzyiq altında belə söz deməsinin mümkünlüyünü istisna etmirik. Peyğəmbər əleyhissəlam Məkkədən mədinəyə hicrət edərkən yolda bir nəfər onlardan hansı qəbilədən olduqlarını soruşduqda Əbu Bəkr (Allah ondan razı olsun!) cavab verib ki, biz su qəbiləsindənik. Belə bir cavab Peyğəmbərin (ə) çox xoşuna gəlmişdir. Həmin yolçu onların su adlı qəbilə və yaxud tayfadan olmalarını güman etmişdir. Bu cavabla Əbu Bəkr (Allah ondan razı olsun!) əslində bildirmək istəmişdir ki, Allah hər şeyi sudan yaratmışdır. Bu cavabla onlar çətin vəziyyətdən çıxış yolu tapmışlar.

Problemi bu üsulla öyrənərkən bütün məsələləri öz dəqiq çərçivəsində yerləşdirir və həmin insanlara haqq qazandırırıq. Ancaq problemi doktor Muhəmməd Hüseynin «Qalalarımızı içəridən təhlükə gözləyir» kitabında göstərdiyi metodla öyrənsək, onda bu cür insanları gərək agent, xayin sayaq. Hesab edirəm ki, müsəlman gənci bütün tarixi dövrləri diqqətlə öyrənməli, zaman və məkanı, xarici və obyektiv səbəb və amilləri nəzərə almalıdır. Məsələnin bu cür qoyuluşu obyektiv rəyə gəlməyə və düzgün nəticə çıxarmağa imkan verir. Şübhəsiz ki, Cəmaləddin əl-Əfqani və Muhəmməd Abduh öz dövrlərində çox mühüm rol oynamışlar. Məsələn, Şeyx Muhəmməd bin Əbdülvahhab yeniliyin tərəfdarı olmuşdur. Onun yeniliyi dəstəkləməsi ingilislərin Osmanlı dövlətinə təcavüz etməsi ilə bir vaxta təsadüf etmişdi. İndi mən buna əsaslanıb iddia edə bilərəmmi ki, onun gördüyü işlər ingilislərin mənafeyinə xidmət etmişdir? Qətiyyən! Əslində onun əməlləri əqidə təəssübündən, islahatın zəruriliyinə bəslədiyi inamdan doğmuşdu. Lakin həmin dövrdə baş verən hadisələr bir çoxlarında bu cür qənaət yaratmışdı. Odur ki, hər bir məsələ ilə bağlı şəraitin hərtərəfli öyrənilməsi bizlərə daha doğru, daha düzgün nəticə çıxarmağa imkan verir, ideya irsimizdən düzgün şəkildə istifadə etməyimizə şərait yaradır.

**Sual:** – Sualım mövzunun özü ilə əlaqədardır. Siz ideyanın İslamlaşdırılması dəyəndə ideya proqramını, qərb ideyasını, yoxsa müsəlman ideyasını nəzərdə tutursunuz? Söhbət əgər İslam düşüncəsinin İslamlaşdırılmasından gedirsə, burada açıq-aşkar bir zidiyyət vardır. Yox, əgər qərb düşüncəsinin İslamlaşdırılması nəzərdə tutulursa, bu daha kəskin bir ziddiyyət doğurur. Çünki qərb ideyası bizim imtinad etdiyimiz proqram və əsaslardan fərqlənir. Dediklərinizi əgər metodologiyanın, düşüncə metodologiyasının İslamlaşdırılmasına aiddirsə, burada başqa bir problem yaranır. Axı, indi mənim əlimdə proqram var. Nə səbəbə başqa bir proqrama inanmalıyam?

**Cavab:** – Əslində mən ideyanın İslamlaşdırılmasından deyil, əksinə, həmişə ideya və İslam bilik metodologiyasının islahatından danışıram. Bu sözlərin arasında böyük fərq var. Dediyimiz kimi, İslam ideyasının öz qaynaqları mövcuddur. Biz iki mənbəyə – vəhy və kainata, kainata olanlara əsaslanırıq. Vəhy mənbəyindən müdrik Şəriət aliminin müəyyən etdiyi çərçivə və sahələr daxilində istifadə edirik. Vücud mənbəyindən də bu cür istifadə edirik. Belə hesab edirik ki, dinin əsasları ilə uyğun gəlməyən bir çox mülahizə və təhriflər müəyyən tarixi zaman kəsiyində bu ideyanı sarsıtmış və ideoloji, psixoloji, mədəni və tərbiyəvi quruculuq prosesində bir sıra nöqsan və çatışmazlıqlara meydan açmışdır. İdeya metodologiyasının islahatı göstərdiyimiz iki mənbə əsasında aparılmalıdır. Bu mənbələrlə

işləmək metodumuzu da yuxarıda izah etdik və göstərdik ki, mətnlərlə bağlı olanları Şəriət proqramı, kainatla bağlı olanları isə ümumbəşər proqramları əsasında öyrənməliyik.

Müsəlman ağlına, müsəlmanın fərdi və ictimai aləminə mənfi təsir göstərmiş məsələ və problemlər tərbiyəni, mədəniyyəti pozmuşdur, ona görə də bütün bu problemləri yaradan səbəblər kökündən araşdırılmalı, onların həlli yolları göstərilməlidir. Qərb ideyasına gəlincə, biz istəyirik ki, onu Quranı, sünnələri əlində tutan ağıllı, uzaqgörən tənqidçi mövqeyindən öyrənək. Elə bir tənqidçi ki, yararlı, pak, əqidəmizə uyğun olanı götürür, qərb fəlsəfəsinin yaratdığı yararsız bəhrələri rədd edir.

**Sual:** – Hədis və sünnələrin davamiyyəti məsələsinə necə baxırsınız? Biz bu ideyanın da qərb modelinin əsiri olduğunu görürük. Təəssüratlar heç də həyat və varlıq haqqında yaxşı təsəvvür yaratmır. Məsələn, Qərb həmişə bizim üçün istər geriliyimizin, istərsə də tərəqqimizin müəyyənləşdirilməsində bir meyar hesab olunur. Bu da öz-özlüyündə əsir düşmək kimi bir şeydir. Hətta bu qərb cəmiyyətini yararsız şeylərdən təmizlədikdən sonra da, sizin fikrinizcə, qərb modelini meyar kimi qəbul etsək yenə də qərb cəmiyyətinin əsiri olub qalacağıqmı? Fikrimi çatdırmaq üçün bir misal gətirmək istərdim. Fərz edək ki, Amerikanın bütün əhalisi həqiqi müsəlmandır, onda necə, bu dövlət bəşəriyyətin məqsədini həyata keçirə bilərmi? Biz bu sivilizasiyanın səviyyəsinə qalxıb, onu saflaşdıran kimi məqsədimizə nail ola bilərikmi? Bir çox məsələlərdə Qərbin təsirinə məruz qaldığımız aydındır. Müqayisə mərhələsi Qərbi yaxınlaşdırmışdır. Bu dövrdə müsəlman İslamı müdafiə edir. Çünki o qərb ideyasından üstündür. Sonra başqa bir mərhələyə daxil oluruq. Qərbin əldə etdiyini biz də əldə etmək istəyirik. Bütün bunlardan belə nəticə çıxmır ki, bizim təsəvvür və fikirlərimiz, varlığımız qərb modelinə istinad edir? Hesab edirəm ki, – təbii ki, Allah daha çox biləndir, – Yer üzünün xəlifəsi olan insanın Qərblə bağlı olmayan öz fikri vardır.

**Dok. Taha Cabir:** – Alternativin nədir?

**Sual:** Belə hesab edirəm ki, qərbi meyar kimi qəbul etmək nəhəngin qarşısına cırtdanın çıxmasına bənzəyir. Qərb sivilizasiyası daim yerində dayanmır. Əgər biz bu sivilizasiyanın səviyyəsinə çatmaq istəyiriksə ibtidaidən başlamalıyıq və bizə illər deyil, əsrlər lazım gələcəkdir?

**Dok. Taha Cabir:** – Yaxşı, biz nə etməliyik?

**Sual:** – Hesab edirəm ki, müəyyən dəqiq proqram hazırlamalı, tamamilə yeni nəzəriyyə yaratmalı, öz hərəkət və əməllərimizdə Qərbi nümunə və meyar kimi qəbul etməməliyik. Əgər biz hər şeyə yenidən

başlayıb, amma qərbi meyar kimi götürsək, məqsədimizə nə zaman nail olacağıq?

**Dok. Taha Cabir:** – Yaxşı, yeni nə təklif etmək istəyirsən?

**Sual:** – Mən yeni heç nə təklif etmək istəmirəm. Mən öz irsimin olduğu kimi qalmasını istəyirəm. İstəyirəm ki, hər bir işdə məlum nümunə əsasında deyil, Həzrəti Peyğəmbərin (ə) əməlinə uyğun hərəkət edim. Bu cəmiyyəti tam şəkildə inkar etmək olmaz. Sizin yararlı hesab etdiyimiz şey əslində qərb cəmiyyəti və fəlsəfəsindən qaynaqlanır. Bu gün bizim meyarımıza uyğun gələn hər şey əsasən qərb ideyasından doğur.

**Şərh:** – Dediyiniz kimi, biz bütün problemlərin həllində Qurana və Peyğəmbər sünnələrinə istinad edirik. Misal üçün, psixologiya elmini götürək. Quran özü insanın rolunu, onun necə fikirləşdiyini, azadlığını, problemlərini, məruz qaldığı xəstəlikləri müəyyən edir, bu problemlərin həlli yollarını göstərir. Yaxud götürək Peyğəmbər (ə) uşaqların tərbiyə məsələsinə dair verdiyi tövsiyələri. Peyğəmbərin hədisləri uşaq psixologiyası ilə bağlı olan bir çox problemləri həll edir. Proqram Quranda və sünnələrdə əsasən mövcuddur. Əgər biz köklərimizə qayıtsaq, hər şeyin həllini tapa bilərik.

**Dok. Taha Cabir:** – Bacımızın dedikləri ilə razısınızmı?

**Sual:** – Təqribən. Qərbdə indi gördüklərimiz bizim üçün təhlükəlidir. Bu təhlükə bizə yad olan ideya və fəlsəfənin mahiyyətindədir.

**Dok. Taha Cabir:** – Belə başa düşürəm ki, biz üç nəfər – sən, bacımız və mən aşağıda göstərilənlərlə razıyıq.

1-ci problem: psixoloji və ictimai problemlərin həllində Quranın və sünnələrin əsas götürülməsi;

2-ci problem: irsimizin öyrənilməsi zərurəti;

3-cü problem: qərb sivilizasiyasına və onun bəhrələrinə, ideyasına və proqramlarına quran və sünnəyə əsasən tənqidi baxış;

4-cü problem: proqram problemidir. Biz bu proqramın mənbələrinə yenidən diqqət yetirməliyik. Qərb bilik mənbəyi kimi yalnız vucudu, hissi və təcrübəni əsas götürür. Mən isə bilik mənbəyi kimi vəhyi – Quranı, sünnələri və vücudu (mövcudiyyəti) əsas hesab edir, hiss və təcrübəni də istisna etmirəm. Biz hansı şeydə qərb proqramı ilə uyğunlaşa bilərik? Mən şəxsən heç bir şeydə belə bir uyğunlaşmanı görmürəm? Mən yalnız bir məsələdə ümumbəşər irsi barəsində onlarla razılaşa bilərəm. Bu irsin inkişaf etdirilməsində qərbli, müsəlman və qeyriləri iştirak etmişlər. İmam İbn Teymiyyə (Allahın mərhəməti üstündə olsun!) Aristotelin məntiq elmini öyrənmiş, hərtərəfli tədqiq etmiş, sonra onun tənqidi mətnini hazırlamışdır. Bu mövzuda o, «Məntiqin ləğvi» və «İki məntiqə cavab» kitablarını

yazmışdır. Sonra o, bir çox kitablarında proqram səciyyəli problemlərə toxunmuşdur. Bu o deməkdirmi ki, indi mən hər şeyi rədd edim, bunları qəbul etməyim və özündə müsbət fikirlər daşıyan hər hansı bilik haqqında düşünməyim.

**Sual:** – Mən bir misal gətirmək istərdim. Fəlsəfə elmi müsəlmanlara bəlli olan zaman onlarda Kəlam elmi, müxtəlif qruplar meydana gəldi. Nə üçün? Çünki fəlsəfəni gətirən insanlar belə hesab edirdilər ki, bu başqa sivilizasiyalardan əxz edilmiş ən gözəl şeydir. Gəlin baxaq! Bu ən gözəl şey nə kimi nəticələr verdi? Ayrılıq, parçalanma və sairə... Mən, sən və başqaları belə gözəl şeyləri qərb sivilizasiyasından əxz etməklə iki min ildən sonra ümməti yeni-yeni problemlər qarşısında qoymarıqmı? Siz buna təminat verirsinizmi?

**Dok. Taha Cabir:** – Təminatı hər zaman Qurana və sünnələrə müraciət etməkdə tapmaq olar.

**Sual:** – Başqa cəmiyyətlərdən fəlsəfə gətirənlərin – (Allah daha yaxşı bilir) – bəziləri pak niyyət sahibləri olub, Qurana və sünnələrə istinad edərək hökm çıxarmış və ya səhv etmişlər.

**Dok. Taha Cabir:** – Əvvəla, mən sizə problemin mahiyyətini anlatmaq istərdim. Onlar fəlsəfədən istədiklərini əxz etməmişlər. Əsla. Fəlsəfə, qardaşım, mənimsənilməsi çətin bir elmdir. Mötəzilizm təlimini qəbul edən, «rasionalizm» mövqeyində duran şəxslər yunan mədəniyyətində olanları tərcümə edərək müsəlmanlar arasında yaydıqları təqdirdə öz məzhəbinə və tərəfdarlarına böyük dəstək əldə edəcəklərini güman edirdilər. Bu, onlara Quran və sünnə tərəfdarları üzərində qələbə çalmaqları üçün lazım idi. Çox təəssüf ki, bu mütərcimlər müsəlman olmamışlar. Məlumdur ki, Həzrəti Peyğəmbərin (ə) ilk işi öz əshabları arasında mütərcimlər yetişdirmək olmuşdur. o, Zeyddən Asur dilini, başqalarından ivriti öyrənməyi tələb etmişdi. əl-Məmun işini yəhudilərə və xristianlara etibar etmişdi. İshaq bin Məymun qrupu və başqa yəhudi, xristian tərcüməçilər yunan və Asur dillərini bilirdilər. Onlar isə ərəb dilinə yunan mədəniyyətində olanların ən pisini tərcümə etmişlər. Onlar vəhy hidayəti ilə doğru yola gəlməyən zəif ağıllar məsələsinə aid problemləri tərcümə etmişlər. Belə rəvayət edirlər ki, xristianlığı məhv edən kitabların saxlandığı bir monastr varmış. Çünki bunlar fəlsəfəyə aid kitablar imiş. İshaq bin Məymunun tərəfdarları bu monastırı dağıdıb həmin kitabları əldə edir və onları ərəb dilinə tərcümə edirlər. Bu zaman kitabların məna keyfiyyətlərinə varmadan hamısını tərcümə edirlər. Bunun da pis nəticələri hamıya məlumdur. Bu kitablar həmin dövrdə siyasi və ictimai mübarizələrin tərkib hissəsinə çevrilmişdi.

Bizlər isə Quranı və sünnəni əsas sabit qaynaq hesab edirik, ideya və mədəniyyətimizi onlardan əxz edirik. Hər bir şeydə yalnız və yalnız bu mənbələrə etimad edir, onlara arxalanırıq. Müasir dövrdə də qərb, yaxud şərq əsilli olmasından asılı olmayaraq hər bir ideyaya bu mənbələr əsasında yanaşırıq. Çünki bizim nur, işıq mənbəyimiz vardır: «*Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab gəldi*» (əl-Məidə: 15). Mən, hər bir şeyin qərb, şərq və başqa əsilli olmasını kənara ataraq, ona yalnız bu prizmadan baxıram. Mən ona həmişə hidayət qaynaq və məqsədlərinə malik ali bir insanın baxışından – ideya, sivilizasiya və mədəniyyət prizmasından yanaşıram. Bununla mən kifayət dərəcədə dəstək qazanıram. Bu dəstək məni hər bir sapmalardan, təhriflərdən qoruyur.

Gözlənilməsi mümkün olan səbəblərin aradan qaldırılması problemi də müsəlmanın ağlında qorxu və xof yaradır. Bu da ideya problemlərindən hesab olunur. Məncə Quranla, sünnə ilə, İslamın əsasları ilə ziddiyyət təşkil etməyən doğru, düzgün nə varsa, hamısını qəbul etmək mümkündür. Nə üçün yüz, iki yüz, yaxud üç yüz il bundan sonra baş verəcək hadisələr barəsində ehtimallar irəli sürməkdən çəkinməliyəm? Fərziyyə və ehtimal düzgün, doğru olanlardan bizi çəkindirə bilməz. Mən istərdim ki, fikirlərimiz aydın olsun. Qərb sivilizasiyası yaxud qərb ideyası və İslam ideyası arasında barışdırıcı mövqe olmamasını, yaxud qərb sivilizasiyası və İslam ideyası arasında mövcud olan divarları uçurub dağıtmağı tövsiyə etmirəm. İstədiyim yeganə şey hər bir şeydə Qurana və sünnələrə etimad etməyin zəruriliyidir. İrsimizi tam öyrənməli, Quran və sünnələr əsasında tənqidi nöqteyi-nəzərdən öyrənməli, sivilizasiya və mədəniyyət problemlərini Quran və sünnələrə istinad edərək öyrənməliyik. Hesab edirəm ki, bu İslami proqramda İslamla ziddiyət təşkil edən heç bir şey yoxdur.

“CBS PP” mətbəəsində çap olunmuşdurş
Yığılmağa velilmişdir 24.06.2009. Çapa imzalanmışdır 24.07.2009.
Formatı 60x90 1/16. Sifariş nömrəsi № 79.
Tiraj 1000 nüsxə. Həcmi 2,5 şərti ç.v.



## *Dr. Taha Cabir əl-Əlvani*

Doktor Taha Cabir əl-Əlvani 1935-ci ildə İraqda anadan olmuşdur. O, Qahirədə yerləşən əl-Əzhər Universitetinin məzunudur. əl-Əlvani, on il (1975-1985) ərzində ər-Riyaddakı İmam Muhəmməd b. Səud Universitetində İslam Hüququ (Fiqh) və İslam Hüququnun Üsulu (Üsulu'l-Fiqh) elmləri üzrə professor olmuşdur. Hal-hazırda o, ABŞ-da fəaliyyət göstərən Kordova Universitetinin Rektoru və Ali İslam elmləri və İcatimai elmlər məktəbinin müdiri vəzifələrini icra edir. Eyni zamanda doktor əl-Alvani, Şimali Amerika İslam Hüququ (Fiqh) Şurasının prezidentidir. O eyni zamanda, Ciddədə yerləşən İslam Ölkələri Konfransının nəzdində fəaliyyət göstərən İslam Fiqh Akademiyasının üzvüdür. Doktor əl-Əlvani, ABŞ-da yerləşən Beynəlxal İslam Təfəkkürü İnstitutunun yaradıcılarından biri və onun keçmiş rəhbəridir. O, bir sıra nəzəri tədqiqatların müəllifidir. əl-Əlvani, İslam Hüquq nəzəriyyəsi və onun metodikası (Fiqh və Üsulu'l-fiqh) sahəsində görkəmli mütəxəssis hesab edilməkdədir. Onun İslam hüququ sahəsindəki ən qiymətli əsərləri arasına aşağıdakılar daxildir:

"İslam Hüququnun Əsasları", "İslamda ixtilaf ədəbi", "İctihad"

"Quran və Sünnə: Zaman və Məkan faktoru", "İslamda insan hüquqları"

İDRAK